www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 30 yanvar 2017-ci il Bazar ertəsi № 20 (6634) Qiymət 60 qəpik

**Xəbər**

**Dəm qazı daha iki can aldı - Xaçmazda...**

yazısı səh.14-də

**Gündəm**

**İlin ilk ayı boşuna getdi - danışıqların "donu" nə vaxt açılacaq?**



ABŞ-ın Qarabağa dair yeni hərəkət planı açıqlandı, amma...

yazısı səh.11-də

**REAL ətrafında nə baş verir? - Hərəkatın daha bir funksioneri bu gün dindiriləcək**

yazısı səh.6-da

**Əsgərimizin cəsədinin düşmən tərəfdə qalmasından 1 ay ötdü**

yazısı səh.5-də

**Elman Rüstəmov dolların 2,50 manat olmayacağını deyirsə, deməli...**

yazısı səh.4-də

**Azərbaycanlı girovların müdafiəsinə qalxan Savçenko Ermənistanın qəzəbinə gəldi**

yazısı səh.5-də

**Eldar Mahmudov da getdi, Elmar Hüseynovun qətli açılmadı - "MTN işi"ndə müəmma**

yazısı səh.3-də

**Tanınmış psixoloqdan həmkarının intiharı ilə bağlı ilginc açıqlama**

yazısı səh.4-də

**"Sovetski"də əhali hələ də köçürüləcəyi günü gözləyir**

yazısı səh.14-də

**"O səs Türkiyə"nin azərbaycanlı iştirakçısı: "Acun media"nı Avropa Məhkəməsinə verəcəyəm"**

yazısı səh.13-də

**Pulun var?... Avropa vətəndaşı ola bilərsən! - Şərtləri bilmək istəyənlər üçün arayış**

yazısı səh.15-də

## Qlobal ab-havanı hansı paytaxt diktə edəcək - günün sualı

# AĞ EVDƏN KREMLƏ KRİTİK TELEFON - ZƏNG AZƏRBAYCAN ÜÇÜN DƏ ÇALINIR...

ABŞ və Rusiya liderləri arasında ilk telefon danışığı - ilin ilk önəmli anonsu; Tramp Güney Qafqaza nə gətirəcək? Ekspertlərin Qarabağ məsələsi də daxil, 2017 gözləntiləri ilə bağlı maraqlı proqnozları var...




yazısı səh.9-da

## Lapşin məsələsi kulminasiyasına doğru - blogger bu həftə Bakıya göndəriləcək

Ekspertlər kimin xahiş etməsindən asılı olmayaraq, Azərbaycanın ekstradisiyadan sonra qərar verməsini doğru sayırlar...

yazısı səh.8-də



*Hikmət Hacızadə:*

**"Elə şey olsaydı, jurnalisti çağırıb ona qonaqlıq verərdim"**

yazısı səh.7-də



İdris Xəlilov

*Tanınmış kardioloq:*

**"İndi ürək xəstəliyindən ölmək gülüncdür"**

yazısı səh.12-də



Elman Məmmədov

**Deputat köçkünlərin etirazından danışdı - "Ehtiyacı olan təbəqə zərbə almamalıdır"**

yazısı səh.6-da

# 30 yanvar 2017



# Kreml Sərkisyana qarşı: Ohanyanın ətrafı genişlənir

**Ermənilərin Rusiyadakı İttifaqının rəhbəri Ara Abramyan Ermənistan baş naziri Karen Karapetyanın Moskvadakı erməni iş adamları ilə görüşünə qatılmayıb. Axar.az xəbər verir ki, bu barədə informasiyanı "Jamanak" qəzeti yayıb.**

Qəzet Abramyanın artıq aşkar şəkildə keçmiş müdafiə naziri Seyran Ohanyan və keçmiş xarici işlər naziri Vardan Oskanyanı dəstəklədiyini bildirib: "Abramyanın müavini Ermənistan Demokratik Partiyasının lideri Aram Sərkisyanın da Ohanyanın yanında olması təsadüfi deyil. Bir müddət öncə Ohanyan Moskvada Abramyanla görüşüb. Məhz Abramyan ona hər cür maliyyə dəstəyi verəcəyini vəd edib" .

Qeyd edək ki, Ermənistan Prezidenti Serj Sərkisyan Seyran Ohanyanı istefaya göndərəndən sonra o, müxalifətə keçib. Ermənistan mətbuatının iddiasına görə, eks-nazirlə prezident arasında inciklik yaşanıb. Üstəlik, Ohanyan Viktor Dəlləkyanın yaratdığı yeni partiyada rəhbər vəzifəyə gətirilib. Bu partiya isə özünün bütün maliyyəsini Rusiyadan alır.

Demək olar ki, cəmiyyət daxilində bütün sütunlarını itirən Sərkisyanın hazırda əsas rəqibi Köçəryan sayılır. Köçəryan artıq bir neçə ildir ki, həm Qarabağda (həm Köçəryan, həm də Sərkisyan Qarabağ klanının üzvləri sayılır - red.), həm də Ermənistanın hakim dairələrində aktiv fəaliyyət aparır. Eks-prezident həmçinin bir neçə dəfə Moskvaya səfər edib. Erməni KİV-i Köçəryana qarşı dayanmaq üçün Sərkisyanın Erməni Milli Konqresi Partiyasının rəhbəri Levon Ter-Petrosyanla birləşməyə çalışdığını iddia edib.

Ara Abramyan da Sərkisyanı sevməyənlər sırasında yer alıb. Moskvada Köçəryanla məhz Abramyan görüşlər keçirib. Rusiyadakı ermənilərin lideri həmçinin Kremlə yaxınlığı ilə seçilir və birbaşa onun diktəsi əsasında hərəkət edir.




# Şaxtalı hava davam edəcək, yollar buz bağlayacaq

**Yanvarın 30-da ölkə ərazisində gözlənilən hava şəraiti ilə bağlı məlumat açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamenti bildirir ki, bu gün Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, gecə və axşam bəzi yerlərdə yağış, sulu qar yağacağı gözlənilir. Gecə və səhər yolların buz bağlama ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək. Havanın temperaturu yarımadada gecə 0-3° şaxta, gündüz 1-5° isti, Bakıda gecə 0-2° şaxta, gündüz 2-4° isti olacaq.**

Azərbaycanın rayonlarında hava gündüz əsasən yağmursuz olacaq. Lakin gecə və axşam bəzi yerlərdə yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5° şaxta, gündüz 0-5° isti, dağlarda gecə 7-12°, yüksək dağlıq ərazilərdə 15-20° şaxta, gündüz 1-6° şaxta olacağı gözlənilir. Yollar buz bağlayacaq.


"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.


# Azərbaycanlıların 85 faizi Vətəni uğrunda döyüşməyə hazırdır - sorğu

**Azərbaycan vətəndaşlarının 85 faizi öz Vətəni uğrunda döyüşməyə hazırdır. APA-nın "Qruziya online" saytına istinadən verdiyi məlumata görə, bu, "WIN/Gallup International" tərəfindən aparılan sorğu zamanı məlum olub.**

Sorğu dünyanın 64 ölkəsində keçirilib. Ümumilikdə respondentlərin 61 faizi ölkələri uğurunda döyüşməyə hazır olduğunu, 27 faizi isə döyüşməyə hazır olmadığını bildirib. Vətəndaşları ölkələri uğurunda döyüşməyə hazır olan ölkələr daha çox Yaxın Şərq və Şimali Afrikada (83 faiz), Qərbi Asiyada (82 faiz), ən az isə Qərbi Avropa (25) regionundadır. Yaponlar sorğu zamanı ölkələri uğrunda döyüşməyə ən az hazır olan (11 faiz) respondentlər olublar. Almanların 13 faizi, britaniyalıların 27 faizi, fransızların 29 faizi ölkələri uğrunda döyüşməyə hazırdır.



Sorğunun nəticələrinə görə, azərbaycanlıların 85 faizi Vətənləri uğrunda döyüşməyə hazırdır. Azərbaycanlılar ölkələri uğrunda döyüşməyə hazır olan xalqlar sırasında 6-cı yerdə qərarlaşıb. Gürcülər 76 faizlik göstərici ilə 9-cu, ermənilər 72 faizlik göstərici ilə 15-ci yerdə qərarlaşıb. Siyahıya 94 faizlik göstərici ilə Mərakeş və Fici başçılıq edir. Ukraynalılar 62 faizlik göstərici ilə 24-cü, ruslar 59 faizlik göstərici ilə 27-ci, İsrail 66 faizlik göstərici ilə 20-ci yerdə qərarlaşıb. Sorğuya hər ölkədən 1000 nəfər cəlb edilib.

# Hansı piyadalar 100 manat cərimələnəcək?

**Baş Dövlət Yol Polis İdarəsi qayda pozuntusuna görə piyadalar üçün nəzərdə tutulan 20 manat cərimə məbləğinin 100 manata qədər artırılacağı ilə bağlı xəbərlərə aydınlıq gətirib. Baş Dövlət Yol Polis İdarəsinin İctimaiyyətlə Əlaqələr şöbəsinin rəisi Kamran Əliyev azvision.az-a açıqlamasında bu məsələdə hər bir piyada üçün cərimənin artırılmasından söhbət getmədiyini deyib.**

Qurum rəsmisi bildirib ki, cərimələrin artırılması beton və dəmir maneələrin aşılması ilə yolun hərəkət hissəsinə çıxan piyadalar üçün nəzərdə tutulub: "Digər hallarda isə cərimə məbləği 20 manat olaraq qalır. Bunlar ayrı-ayrı qayda pozuntularıdır. Bir şəxs bilərəkdən beton və ya dəmir maneəni aşaraq yolun hərəkət hissəsinə çıxır. Məlum olduğu kimi, həmin arakəsmələr nisbətən yüksək sürət olan yollarda tətbiq olunur. Belə maneələrlə təchiz olunmuş yolların hərəkət hissəsinə çıxmaq özünün və digər hərəkət iştirakçılarının həyatı üçün böyük təhlükə yaradır. Belə olduğundan həmin sanksiyanın cərimə məbləğinin artırılması barədə təklif olunub".

K.Əliyev qeyd edib ki, adıçəkilən cərimə artımı ilə bağlı müzakirələr olacaq: "Son nəticədə hansı qərar qəbul olunacaqsa, yol hərəkəti qaydalarını pozan piyadalara qarşı bizim əməkdaşlar tərəfindən həmin cərimə sanksiyası tətbiq olunacaq".

Qeyd edək ki, təklif olunan layihə Milli Məclisə göndərilib və yaz sessiyasında müzakirə olunacaq. Hazırda İnzibati Xətalar Məcəlləsində piyadalara qarşı 4 maddə ilə inzibati protokol tərtib olunur. Onların da hər birinin cəriməsi 20 manatdır.

# Ömürlük həbsə məhkum edilmiş bankiri yeni vəkil müdafiə edəcək

**Xəbər verdiyimiz kimi, Bakı Apelyasiya Məhkəməsində hakim Əflatun Qasımovun sədrliyi ilə "Bank Standart"ın işçisi, ömürlük həbs cəzası almış Zaur Tərlanovun apelyasiya şikayətinə baxılır.**



Z.Tərlanov 2015-ci il yanvarın 8-də axşam saatlarında Bakının Qaradağ rayonunun Sahil qəsəbəsində 1985-ci il təvəllüdlü Cahid və 1980-ci il təvəllüdlü Cavid Rəhimovlarla uzun çəkişmədən sonra onlara odlu silahdan atəş açmışdı. Qardaşlar hadisə yerində dünyalarını dəyişmişdi.

İstintaq zamanı məlum olmuşdu ki, olaydan əvvəl Rəhimov qardaşları Z.Tərlanovun evinə soxulub, silahla hədələməklə yaşadığı qadına təcavüz ediblər. Həmin vaxt mənzildən 34 min manat pul da yoxa çıxıb. Z.Tərlanov Rəhimovların təhdidlərindən yayınmaq üçün Sahil qəsəbəsindəki mənzilini tərk etmək məcburiyyətində qalıb. 4 ay Ağsu şəhərində Rəhimovlardan gizlənib. Onun qızının xəstəliyi ilə əlaqədar qəsəbəyə qayıtdığını öyrənən Rəhimovlar zorla dəniz kənarına aparıblar və belə bir qanlı olay meydana gəlib.

İbtidai istintaq dövründə Z.Tərlanovun yaxınları onun bu olayı törətməyə Rəhimovların hərəkətləri ilə sövq etdiklərini təsdiqləyən ən müxtəlif sübutlar təqdim ediblər. Rəhimovların onu hədələməsinin səs yazısını da istintaqçılara veriblər. Sonradan iş materialları Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib. Məlum olub ki, bir çox sübutlara düzgün qiymət verilməyib. Məhkəmədə hakimin ədalətinə güvənən, baş verənlərə görə dərin təəssüf hissi keçirən Z.Tərlanov deyib ki, özünün və xanımının zorakılığa məruz qalması, şərəf və ləyaqətinin alçaldılması son nəticədə belə bir olayın meydana çıxması ilə yekunlaşıb.

Z.Tərlanovun yaxınları bildirirlər ki, hakim onların təqdim etdikləri sübutlara obyektiv qiymət verməyib və Z.Tərlanov haqda ömürlük həbs cəzası çıxarıb. Hazırda iş apelyasiya instansiyasındadır. Vəkil Vüqar Xasayev Z.Tərlanovun müdafiəsinə yenicə qoşulub. Buna görə də prosesdə 2 həftəlik fasilə yaranıb. İş üzrə növbəti proses fevralın 10-na təyin olunub.

E.MƏMMƏDƏLİYEV



# Məhkəmə Trampın müsəlmanlarla bağlı fərmanını dondurdu

**Prezident Donald Trampın miqrasiya fərmanının qüvvəyə minməsinə baxmayaraq, qüvvədə olan vizalarla ABŞ-a səfər etmiş insanlara məhkəmə tərəfindən ölkədə müvəqqəti qalmaq icazəsi verilib.**

APA-nın "Röyters"ə istinadən verdiyi xəbərə görə, Amerika Vətəndaş Hüquqları İttifaqının məlumatına əsasən, məhkəmə qərarı ABŞ-ın hava limanlarında və tranzit zonalarında saxlanılmış 200-dək şəxsə şamil ediləcək. ABŞ-ın Daxili Təhlükəsizlik Nazirliyinin nümayəndəsi fərmanın qüvvəyə mindiyi 23 saat ərzində 109 nəfərin ölkəyə girişi məhdudlaşdırılıb.

Vətəndaş Hüquqları İttifaqı aeroportlarda saxlanılan 7 müsəlman ölkəsinin vətəndaşları adından hazırlanan petisiyanı təqdim etdikdən sonra hakim Enn Donelli müvafiq məhkəmə qərarı verib. "Assoşieyted Press" qeyd edir ki, bütün ölkə ərazisində qüvvədə olan məhkəmə qərarı ABŞ hakimiyyətinə yeni fərmanın şamil edildiyi şəxslərin deportasiya olunmasını qadağan edir. Qərar həmçinin qaçqın statusunun verilməsinə dair ərizələrinə müsbət cavab almış bütün şəxslərin hüquqlarını qoruyur.

Xatırladaq ki, Donald Trampın imzaladığı fərmana əsasən, qaçqınların qəbulu 120 gün müddətinə dayandırılıb. Bundan başqa, Suriya qaçqınlarının qəbulu qeyri-müəyyən müddətə, İran, İraq, Suriya, Sudan, Yəmən, Liviya və Somali vətəndaşlarının ölkəyə girişi isə 90 gün müddətinə dayandırılıb.

YENİ MÜSAVAT
N 20 (6634) 30 yanvar 2017

# Prezident İlham Əliyev yəhudilərin lideri ilə görüşüb

**Azərbaycan prezidenti İlham Əliyev yanvarın 29-da Amerika Yəhudi Komitəsinin icraçı direktoru Devid Harrisin və komitənin prezidenti Con Şapironun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Görüşdə Azərbaycanda iqtisadi və digər sahələrdə həyata keçirilən islahatlar ətrafında fikir mübadiləsi aparılıb, bu islahatların yaxından izlənildiyi qeyd olunub.**

Azərbaycan Prezidentinin Davosda səmərəli görüşlər keçirdiyi vurğulanaraq, bu görüşlərin dünyada Azərbaycanla əməkdaşlığa olan marağın göstəricisi kimi dəyərləndirilib. Söhbət zamanı Azərbaycanla ABŞ arasında ikitərəfli əlaqələrə toxunulub, bu əlaqələrin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə edilib, Azərbaycan-ABŞ əməkdaşlığının bundan sonra da davam etdiriləcəyi əminliklə qeyd olunub.



Daha sonra Azərbaycan-İsrail əlaqələrindən danışılıb, əlaqələrimizin müxtəlif sahələrdə inkişafının razılıq doğurduğu bildirilib, İsrailin baş naziri Benyamin Netanyahunun ölkəmizə səfərinin bu əlaqələrin genişləndirilməsi baxımından önəmi vurğulanıb. Görüşdə həmçinin Azərbaycan ilə Amerika Yəhudi Komitəsi arasında əməkdaşlığın bundan sonra da davam etdiriləcəyinə əminlik ifadə olunub. Sonda xatirə şəkli çəkdirilib.

# Eldar Mahmudov da getdi, Elmar Hüseynovun qətli açılmadı - "MTN işi"ndə müəmma

## Təşkilatçılar və icraçılar haqda müfəssəl məlumatlar ortada ikən, baş redaktorun qətli niyə araşdırılmır?..

**Eldar Mahmudov vəzifədən uzaqlaşdırıldıqdan sonra onun 11 ilə yaxın rəhbərlik etdiyi Milli Təhlükəsizlik Nazirliyi (MTN) ləğv olundu. Qurumun yüksəkvəzifəli əməkdaşlarının həbsi böyük ajiotaja səbəb olan, cəmiyyəti silkələyən, illərlə qapalı qalan cinayətlərin nəhayət araşdırılacağına ümid yaratdı. Mahmudovun nazirliyinə uzanan cinayətlərin bolluğunda diqqəti cəlb edənlər isə az deyil.**

Məsələn, 2005-ci il martın 2-də Bakıda yaşadığı binanın blokunda "Monitor" jurnalının baş redaktoru Elmar Hüseynov öldürüldü. Qətldən sonra prokurorluq orqanları azad sözə yönəlmiş bu ağır cinayətin üstünün açılması üçün bir sıra mühüm addımlar atmışdılar. Qətldə dolayısı ilə iştirak etmiş Turqay Bayramov həbs edilmiş, killer dəstəsinin 2 üzvü müəyyən olunmuşdu. Lakin cinayət işi prokurorluqdan alındı və MTN-ə ötürüldü. Bundan sonra və bu günə qədər istintaq yerində saymağa başladı, cinayətin üstü açılmamış qaldı. Halbuki Elmar Hüseynova qarşı törədilən cinayətin iştikakçıları, təşkilatçısı haqda da bu günə qədər təkzib olunmayan, lakin araşdırılıb-araşdırılmaması da bəlli olmayan faktlar ortalıqdadır.

Qətldən sonra təşkilatçı kimi MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin rəisi, general-mayor Akif Çovdarovun adı hallanırdı. A.Çovdarovun bu qətlin təşkilatçısı olduğunu 2010-cu ilin yayında o zaman həbsdə olan jurnalist Eynulla Fətullayev gündəmə gətirmişdi. E.Mahmudov işdən qovulandan, Akif Çovdarov da daxil olmaqla onun komandasının üzvləri həbs ediləndən sonra, nəhayət ki, Elmar Hüseynovun qətlinin də araşdırılacağına ümidlər yaranmışdı. Bu gün də adı ictimaiyyətə qətlin təşkilatçısı kimi təqdim olunan Akif Çovdarovla bağlı araşdırma aparılması zərurəti ortadadır.



Eldar Mahmudov



Elmar Hüseynov

Elmar Hüseynovun qətlində icraçı kimi 5 Gürcüstan vətəndaşının adı keçir. Bunlar - Tahir Xubanov, Teymuraz Əliyev, Arçil Kasiya, Nuqzar Bolkvadze və Serqo Davrişovdur. Onların şəxsiyyəti, qətldən əvvəl qaldıqları ev, Azərbaycana qətl törədilən il yanvar və fevral ayında bir neçə dəfə gəlib-getmələri bilinir. Onlar sonuncu dəfə Azərbaycanı 2005-ci il mart ayının 3-də səhər saat 8:24-də - Elmar Hüseynov qətlə yetirildiyi gecənin səhəri tərk ediblər. Təşkilatçılar və icraçılar haqda müfəssəl məlumatlar ortada ikən, baş redaktorun qətli niyə araşdırılmır?

Bundan başqa, qətldən sonra üzə çıxan bir çox müəmmalar da araşdırılmamış qalmaqdadır.

Bu haqda ötən yazılardan birində qeyd etmişdik. Bir daha yazıdıqlarımıza nəzər salaq:

- Məsələn, Elmar Hüseynova mənzilinin girişində açılan atəşlərdən sonrakı dəqiqələrdə onun evində telefon işləməyib. Yaxınlarının istifadəsində olan mobil telefonlardan da zəng etmək mümkün olmayıb. Bu məsələ qətldən 2 gün sonra Azadlıq Radiosunun efirində müzakirə olunub. Müzakirədə Azərbaycan parlamentinin vitse-spikeri Ziyafət Əsgərov, "Azadlıq" qəzetinin baş redaktoru Qənimət Zahid və o dövrdə "Monitor" jurnalının redaktor müavini olan Eynulla Fətullayev iştirak ediblər. Müzakirədə baş prokurorun müavini Ramiz Rzayevə istinadən bildirilib ki, istintaq bu ana (2005-ci il martın 4-də baş tutan müzakirə nəzərdə tutulur-E.M.) qədər ancaq mərhumun atası və xanımının qətl törədilən vaxt işıq, mobil və şəhər telefonunun qəsdən kəsilməsi barədə iddialarını araşdırıb.

Həmin müzakirədən sitat: "Cənab Rzayevin sözlərinə görə, mobil və şəhər telefonu daim işləyib. Müstəntiqlər uzağı 4-5 dəqiqə rabitədə nasazlıq olduğunu ehtimal edirlər. Şəhər telefonu isə ancaq otaqlardan birində, xətt qırıldığı üçün işləməyib".

Bundan başqa, qətlə yetirilən baş redaktorun həyat yoldaşı Ruşaniyyə Hüseynova da müsahibələrində telefonların işləmədiyinə diqqət çəkib. Maraqlıdır ki, qətllə bağlı digər məqamlar araşdırılsa da, telefonların işləməməsi məsələsi sonradan diqqətdən kənar qalıb. Necə olub ki, rabitədə 4-5 dəqiqəlik nasazlıq yaranıb? Bu, bir təsadüfdür, yoxsa yaxşı hazırlanmış qətl planının tərkib hissəsidir?

Elmar Hüseynov öldürüldüyü gün onu yaşadığı binaya "Monitor" jurnalının kommersiya direktoru Zakir Rzayev gətirib. "Yolda Elmar mağazadan oğluna yoqurt aldı. Sonra binalarının qarşısında avtomobildən düşdü. Avtomobildən düşərkən "Zerkalo" qəzetinin müxbiri İbrahim (İbrahim Bayandurlu, 2010-cu ildə vəfat edib) zəng etdi. O, İbrahimlə telefonla danışa-danışa binaya daxil oldu", - deyə qətldən sonra Zakir Rzayev bildirib.

Deməli, Elmar Hüseynovun telefonu binaya daxil olana qədər işləyib. Qətldən dərhal sonra isə telefon sadəcə, ümumi şəbəkədən 5-6 dəqiqəliyə ayrılıb. Həmin 5-6 dəqiqədə killer dəstəsi ərazidən uzaqlaşıb. Sonradan telefonlar işləməyə başlayıb və çağırışla əraziyə təcili yardım, hüquq-mühafizə orqanları gəliblər. Hadisə yerindən 150 metr aralıda papaq və tapança aşkar edilib ekspertizaya təhvil verilib. Amma heç bir əl izləri olmayıb. Deməli, baş redaktorun qətlində təsadüfi heç nə olmayıb. Həmçinin təsadüfən telefonların işləməməsi də. Əlbəttə, bu nüansın da araşdırılması hüquq-mühafizə orqanlarının çiyinlərinə düşür. Qətl və ondan sonra baş verənlər telefonların nasazlıq üzündən işləməməsi versiyasına çox ciddi şübhələr yaradır.

E.Mahmudovun işdən çıxarılmasından ötən 1 il 3 ay ərzində yəqinləşdi ki, Azərbaycan hüquq-mühafizə orqanları onun rəhbərliyi dövründə və altında törədilən cinayətlərin həmısının tam olaraq araşdırılmasına bir sıra səbəblərdən təzədən qayıtmaq istəmirlər.

❑ E.MƏMMƏDƏLİYEV

# Tramplı dünyanın 10 günü - nələr dəyişdi?

## Qabil Hüseynli: "Bu 10 gündə onun hansısa ciddi açıqlamasının, fəaliyyətinin şahidi olmamışıq"

**ABŞ-ın yeni prezidenti Donald Trampın inauqurasiya mərasimindən 10 gün ötür. Rəsmi şəkildə fəaliyyətə başlayan Ağ Evin yeni sahibi ilk 10 gündə istər xarici, istərsə də daxili siyasətlə bağlı bir sıra önəmli qərarlar verib.**



Donald Tramp

Seçkilərdən öncə təbliğat kampaniyası çərçivəsində verdiyi vədləri artıq Tramp yerinə yetirməyə başlayıb. "Hər şey amerikalılar üçündür" deyən yeni prezidentin xarici siyasətdən daha çox daxilə yönəldiyi andiçmə mərasimindən keçən müddət ərzində göründü. Ekspertlərin Trampın 10 günlük fəaliyyətinə baxışları da müxtəlifdir.

Politoloq Qabil Hüseynli dünya şöhrətli müğənni Rihannanın Trampla bağlı dediklərinin çox şeydən xəbər verdiyini söylədi: "Rihanna nə qədər qeyri-senzuralı ifadələr işlətsə də, onun dediklərini söyləmək mümkündür. O deyir ki, bu iyrənc donuz göz görə- görə Amerikanı dağıdır. Ölkənin ən məşhur adamları onun fəaliyyətindən narazıdırlar. 14 Nobel mükafatı laureatı onun Rusiya ilə yaxınlaşmaq siyasətini sərt şəkildə tənqid edib, həmçinin fəaliyyətini pisləyib. Cennifer Lopez də deyib ki, imkanım olsaydı, Ağ Evi partladardım. Tramp çox iddialı danışır, Amerika və dünyanı dəyişəcəyini iddia edir. Trampın Putinlə ilk telefon danışığının detalları mətbuatda yayılıb. Belə təsəvvür yaranıb ki, guya tərəflər arasında bir çox prinsipial məsələlərlə bağlı razılaşma əldə olunub. Suriya məsələsində razılığın əldə olunması ilə bağlı məsələ xüsusilə qabardılır. Suriyada məsələ gərgindir. Artıq bu ölkə Rusiyanın vassalına çevrilib. Doğrudur, Tramp İŞİD-a qarşı sərt mübarizə aparacağını və bir aya terror təşkilatını çökdürəcəyini deyir. Onun Suriya məsələsindəki geosiyasi düşüncələri və dünyanın bu qaynar nöqtədəki prosesləri görmə qabiliyyəti diktə olunacaq səviyyədə deyil. Putin bu məsələləri daha yaxşı analiz edir və yaxşı başa düşür ki, Rakkada bu qədər qüvvələri birləşdirməyə gərək yoxdur. Tramp Avropa Birliyi və NATO ilə bağlı konkret bir fikir söyləmir. Bu da xarici siyasətin əskiklərindən biridir. Yalnız Rusiya ilə bağlı dediklərini təkrarlamaqla məşğuldur. İsraillə bağlı bu ölkənin xoşuna gələn açıqlamalar verib. Hədəf kimi Çini seçdiyini də gizlətməyib. Bu ölkəyə qarşı tədbirlər görəcəyini açıq şəkildə bəyan edib".

Politoloq Trampla təmasda olan şəxslərin heç də xoş təəssüratlarının olmadığını da qeyd etdi: "Onun danışıq tərzi, davranışları barədə ürəkaçan fikir söyləmirlər. Məsələn, Fransanın bir siyasi şəxsinin onunla görüşündə tərcüməçi olmuş birisi Fransa mətbuatına verdiyi müsahibədə tərcümə prosesində çox əziyyət çəkdiyini, Trampın cümlələrini başa düşmədiyini, bir çox sözlərinin ingilis dilində olmadığını, cümlələrin quruluşunda onun qayda-qanunları gözləmədiyini və bu səbəbdən də tərcümənin çox keyfiyyətsiz alındığını bildirib. Tərcüməçi onun intellektual səviyyəsindən heyrətləndiyini gizlətməyib. Üstəlik, Amerikanın siyasi və ziyalı elitası demək olar hər gün Trampı qeyri-etik ifadələrlə təhqir etməkdə davam edirlər. Amerika qaynamaqda davam edir. Nümayişlər hələ də səngiməyib. Belə gərgin şəraitdə Trampın hansısa bir ölkənin inkişafı ilə bağlı konsepsiyasının olmasına belə ciddi şübhələr yaranmaqdadır. Andiçmə mərasimindəki çıxışında nə xarici, nə də daxili siyasətlə bağlı ciddi tutumlu sözlər söyləmədi. Yalnız Çin və İranı tənqid etdi. Avropa Birliyi ölkələri çox narahatdır. Fransa prezidenti Olland son 10 gündə onu çox ağır formada tənqid edir. Almaniyanın istefaya getmiş və gələcəkdə rəhbəri olacağı ehtimal olunan xarici işlər naziri Trampla müəmmalı vəziyyətdə yeni bir dövrün başlandığını söyləyib. Kansler Merkel də onun sözlərinə şərik çıxır və deyir ki, Tramp son 25 ildə formalaşan dünya düzənini pozmaqda və yeni dövr başlatmaqdadır. Avropa ölkələrinin digər rəhbərləri isə susmaq yolunu seçiblər. Trampın inauqurasiya mərasimindən sonra hər hansı bir ciddi açıqlamasının, fəaliyyətinin şahidi olmamışıq. Sadəcə, əvvəlcədən təsəvvür etdiyimiz Trampdır ki, Amerika kimi böyük dövlətin başına keçib və bu dövlət də hələ ki öz gücü ilə hərəkət etməkdədir".

❑ Cavanşir ABBASLI

**Ötən həftə psixoloq Dəyanət Rzayevin intihar etməsi ictimaiyyətdə ciddi rezonans doğurdu və müzakirəyə səbəb oldu. Sosial şəbəkələrdə insanlar bir psixoloqun intihar etməsinə fərqli mövqelərdən yanaşdılar. Mətbuat səhifələrində də bu hadisəyə geniş yer verildi.**

# Tanınmış psixoloqdan həmkarının intiharı ilə bağlı ilginc açıqlama

## Azad İsazadə: "Psixoloqların arasında hətta məşhur tükənmə sindromu da var"



Azad İsazadə

Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan psixoloq Azad İsazadə həmkarının intihar etməsinə dair maraqlı fikirlər söylədi. O, "Sözsüz ki, Dəyanət Rzayevin intihar etməsinin səbəbləri barəsində konkret fikir söyləyə bilməyəcəm. Çünki onunla çox da yaxın deyildim" - deyə qeyd etdi: "Ancaq bir şey məlumdur ki, istər psixiatr, istərsə də psixoloqlar mənfi emosiyalarla işləyirlər. Biz hər gün hansısa insanların mənfi hisləri ilə yüklənirik. Nəticədə elə anlar olur ki, bunlar bizə də neqativ təsir göstərir. Psixoloqların arasında hətta məşhur tükənmə sindromu da var. Belə ki, birdən-birə biz öz işimizdən bezirik, yoruluruq. İstisna etmirəm ki, mərhum Dəyanət də hansısa səbəbdən tükənib. Bəlkə də onun başqa problemləri də olub. Ancaq ümumiyyətlə, mənfi emosiya ilə işlədiyimizə görə bizim peşədə belə hallara rast gəlinə bilər. Bəzən özümüz bu problemi həll edə bilirik, elə an da olur ki, bu alınmır".

Psixoloq bildirdi ki, o özü də digər həmkarlarına müraciət edərək, gərginlikdən xilas olmağa çalışır: "Bəzən bir-birimizə müraciət edirik. Buna psixoloqların təmizlənməsi deyir. Ancaq rəsmi formada psixoloqların bu məsələ ilə bağlı hər hansı bir bərpa kursu keçməsi və digər bu kimi seanslar mövcud deyil. Ümumiyyətlə, Azərbaycanda psixoloqların işi çox pərakəndədir. Bu işlə bağlı mərkəzləşmə yoxdur. Hansısa standartlar da mövcud deyil. Kimisi Türkiyədə oxuyub, oranın məktəbindən, kimisi də Moskvada təhsil alıb, həmin üsullardan istifadə edir. Ancaq qeyd etdiyim kimi, qeyri-rəsmi formada bir-birimizə yardım edirik. Elə olub ki, məni dəvət edərək xahiş ediblər ki, digər psixoloji mərkəzin əməkdaşları ilə işləyəm. Bir-iki dəfə olub ki, mən özüm də yaxın dostlarıma özüm müraciət edib, hansısa problemimi həll etmişəm. Yəni bu cür metodikalar mövcuddur. Ancaq bundan hamının istifadə etdiyini də söyləmək çətindir".

A.İsazadə son zamanlar ölkədə intiharların sayının artması məsələsinə də toxunub: "Əgər insanda intihar fikri yaranıbsa o, artıq buna qarşı özbaşına nə isə edə bilməz. Sözsüz ki, burada peşəkar yaxınlaşma lazımdır. Ölkədə son zamanlar intiharların sayı artır. Ancaq təhlükəli nöqtəyə hələ çatmayıb. Bu isə o demək deyil ki, biz oturub həmin həddi gözləməliyik. Bu halı təhlil etmək üçün mərkəzləşmiş araşdırma qurumunun yaradılmasına ehtiyac var. Bütün statistika həmin mərkəzə yığılmalıdır və biz də intiharların səbəblərini, yaş, cins qrupunu öyrənməliyik. İlk növbədə intiharları araşdırmaq lazımdır ki, biz də konkret olaraq tədbirlər təklifi hazırlaya bilək. Lakin indiki vəziyyətdə biz bilmirik ki, hansı təklifləri məktəblərə verək, pensiya fondlarına nələr təklif edək və sairə. Bu baxımdan hansısa qurum yaranmalıdır ki, onun içərisində bir neçə peşə sahibləri birləşsinlər. Orada həkimlər, psixiatrlar, sosial işçilər olmalıdır".

Psixoloq ölkədə məktəb psixoloqlarının fəaliyyəti barəsində aşağıdakıları söylədi: "Məktəblər bizdə psixoloqlar üçün geniş iş yerinə çevrilib. Rəsmi dövlət işinə diqqət etdikdə, ən çox psixoloqun məktəblərdə çalışdığını görürük. Sözsüz ki, onların arasında peşəkarı da, zəifi də var. Məktəb psixoloqlarının iki ən böyük problemləri var. Birincisi, şagirdlərlə müqayisədə onların sayı çox aşağıdır və ona görə də bütün uşaqlarla işləməyi çatdırmırlar. İkincisi isə aldıqları əmək haqqı yetərli deyil. Bu baxımdan öz üzərilərində çalışmağa stimulları yoxdur. Bu iki problem həll olunsa məktəb psixoloqlarının arasında peşəkarlıq artacaq və şagirdlərlə psixoloji baxımdan normal iş qurulacaq".

❑ Əli RAİS



musavat.com/ Fərahim İLQAROĞLU

# Zəfər Quliyevin vəfatından 2 il ötdü

**Yanvarın 29-da "Yeni Müsavat" ailəsinin üzvü, Minval.az saytının eksperti, politoloq Zəfər Quliyevin vəfatının iki ili tamam oldu. İki il öncə Zəfər bəy müalicə məqsədilə yollandığı Gürcüstanda ürək çatışmazlığından dünyaya gözünü yumdu, aramızdan ayrıldı.**

Bu iki il ərzində biz, demək olar ki, bütün xeyir-şər məclislərində onun adını andıq, xatirəsini yad etdik və bir daha anladıq ki, yeri heç cür doldurulmayan insanlar var və onlardan biri də Zəfər Quliyevdir.

Gerçəkdən də olduqca mədəni və işıqlı insan idi Zəfər bəy. Əsl ziyalıydı. Əsl vətənpərvər idi. Əsl demokrat idi. Dərin zəkaya malik idi. Nə yazıq ki, amansız xəstəlik onu aramızdan, sevənlərindən ayırdı, neçə-neçə arzuları yarımçıq qaldı. Onun vaxtsız vəfatı onu tanıyan minlərlə insan üçün sarsıdıcı xəbər oldu. Zəfər bəy çox sevdiyi oğlu İlkinin toyunu, ən xoşbəxt gününü görmədən ayrıldı həyatdan.

Allah sənə qəni-qəni rəhmət eləsin, Zəfər bəy.

"Yeni Müsavat" ailəsi

# Elman Rüstəmov dolların 2,50 manat olmayacağını deyirsə, deməli...

## Ekspert: "Mərkəzi Bank sədrinin dediyinin həmişə tərsi olur..."

**Manatla bağlı baş verənlər və proqnozlar bədbin olsa da, rəsmilər problemi sanki görməzdən gəlirlər. Son olaraq Mərkəzi Bankın sədri Elman Rüstəmov dolların 2 manat 50 qəpiklik ola biləcəyi ilə bağlı proqnozlara münasibət bildirib.**



Elman Rüstəmov

O, unikal.org-a açıqlamasında deyib ki, bu gün dolların manata nisbəti "üzən məzənnə" ilə müəyyən edilir: "Amma mən 1 dolların 2 manat 50 qəpik olmasını proqnozlaşdırmıram. Yəni bu barədə yayılan məlumatlar həqiqətə uyğun deyil. Hesab etmirəm ki, dollar 2 manat 50 qəpik olacaq". E.Rüstəmov həmçinin bildirib ki, dolların məzənnəsi təkcə Azərbaycanda deyil, dünyanın əksər ölkələrinin milli valyutasına nisbətdə bahalaşıb.

Ekspert Natiq Cəfərli isə məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, E.Rüstəmovun bəyanatı özü təzadlıdır. Yeni "üzən məzənnə"də hansı valyutanın hansı həddə "üzəcəyi" əvvəlcədən məlum olmur: "Açıqlamanın təzadlı tərəfi ondan ibarətdir ki, Elman Rüstəmov özü dəfələrlə Azərbaycanda manatın tam "üzən məzənnə"yə keçdiyini bəyan edib. Tam "üzən məzənnə" rejimində milli valyutanın hara qədər ucuzlaşacağı və bahalaşacağını Mərkəzi Bank rəhbəri proqnozlaşdıra bilməz. Bu, bazarda olan vəziyyətdən, tələb və təklifdən, ölkənin valyuta gəlirlərindən asılı olacaq. Bu nöqteyi-nəzərdən bəyanatda bir təzad var. Azərbaycanda çox qəribə bir tendensiyadır. Tam "üzən məzənnə" rejimi elan olunsa da, nədənsə həmişə manat ucuzlaşmağa doğru "üzür". Əgər "üzən məzənnə" rejimidirsə, bir dəfə hərracda bahalaşa bilər, o birində ucuzlaşa bilər, manatın məzənnəsi belə dəyişə bilər. Amma elan olunandan bu günə qədər ancaq biz manatın ucuzlaşmasını müşahidə edirik. Deməli, burada da tam "üzən məzənnə" rejiminə əməl olunduğunu demək mümkün deyil".

Ekspertin sözlərinə görə, tam "üzən məzənnə"də məzənnəni öncədən müəyyən etmək mümkün deyil: "Əgər bunu Elman Rüstəmov öncədən müəyyən edirsə, demək bu, tam "üzən məzənnə" deyil. Mərkəzi Bankın müəyyən müdaxiləri və tənzimləməsi ilə manat müəyyən həddə qədər ucuzlaşa bilər. Əgər tam "üzən məzənnə" rejimində Mərkəzi Bank israrlıdırsa, burada məzənnənin hansı səviyyədə olacağını heç kim bilə bilməz. Dediyim kimi, bu, bir çox faktorlardan asılı olacaq. Təəssüf ki, Azərbaycanda manat iki kəskin devalvasiyadan sonra yumşaq şəkildə yenidən devalvasiyaya uğrayır. 2015-ci ilin dekabrından bu günə manat 23 faiz yenə dəyər itirib. Yəni yumşaq şəkildə olsa da, bir il ərzində 23 faizlik növbəti devalvasiya da olub. İndi hansı səviyyəyə qədər manatın ucuzlaşacağını söyləmək Mərkəzi Bankın və hökumətin qoyduğu hədəflərdən asılı olacaq. Çünki Azərbaycanda tam "üzən məzənnə" rejiminə keçmək üçün institusional altyapı, bazarda isə çoxlu sayda oyunçu olmadığına görə manatın hansı səviyyədə qədər ucuzlaşdırılacağı Mərkəzi Bankdan asılı olacaq. Hansı səviyyəyə qədər ucuzlaşdıracaqlar, hansı səviyyədə qədər stabilləşdirməyə çalaşacaqlar, bunu Azərbaycanın indiki iqtisadi vəziyyətində söyləmək mümkün deyil. Yenidən manatın kəskin şəkildə ucuzlaşdırılması artıq ölkə iqtisadiyyatında çox böyük bir təlatümlərə, qiymət artımına, inflyasiyanın daha sürətlə artmasına səbəb olub. Manat bəlli bir səviyyədə stabilləşməsə, bu, iş adamlarının ölkəyə gətirdiyi idxal mallarına çox ciddi mənfi təsir göstərəcək. Qiymət artımı, ölkədəki inflyasiya çox böyük sürətlə gedəcək. İndi əsas məsələ hökumətin manatı hansı səviyyədə stabilləşdirməyi düşünməyindən asılıdır. Bu da Mərkəzi Bankın, hökumətin səlahiyyətindədir. İqtisadi faktorlar olmadığına görə bu, siyasi qərar olacaq. Bu siyasi qərarın nə olacağını təəssüf ki, iqtisadçılar proqnozlaşdıra bilmirlər".

Ekspert Əkrəm Həsənov isə bildirib ki, ilin sonuna kimi dolların 2,50 manat olacağı haqda proqnozu mətbuata o verib: "Proqnozumun həqiqətə belə yaxın olduğunu və hətta bəlkə də optimistik olduğunu özüm də bilmirdim. Axı Elman müəllimin dediyi həmişə tərsinə olur". Ekspert bildirib ki, artıq hamıya aydındır ki, dollar yaxın aylarda 2 manatı keçəcək: "İndi əsas məqsəd odur ki, ilin sonuna kimi dollar 2 manat 50 qəpiyi keçməsin. Əgər Mərkəzi Bank Dövlət Neft Fondundan aldığı vəsaiti düzgün istifadə etməyi bacarsa, bəlkə də dollar 2,50-lik səviyyəni keçmədi. Ehtimal edirəm ki, Mərkəzi Bank bu məqsədə nail olacaq".

İqtisadçı Qulu İbrahimli isə fins.az-a bildirib ki, Azərbaycan manatının Mərkəzi Bank tərəfindən son vaxtlar daha sürətlə ucuzlaşdırılması beynəlxalq reytinq agentliklərinin ölkəmizlə bağlı yaxınlarda gözlənilən qiymətləndirmələrinə hazırlıqla bağlı ola bilər. Onun sözlərinə görə, Mərkəzi Bank tərəfindən Azərbaycan Beynəlxalq Bankına vəsait ayrılması Mərkəzi Bankın balansında tarazlığı pozur: "Bu da öz növbəsində milli valyutamızın inzibati yolla süni ucuzlaşdırılması zərurətini yaradıb".

❑ Röya RƏFİYEVA

YENİ MÜSAVAT
N 20 (6634) 30 yanvar 2017

**Azərbaycan ordusunun əsgəri Qurbanov Çingiz Salman oğlunun meyitinin Ermənistan tərəfdə qalmasından bir ay ötdü. Bu müddət ərzində Azərbaycan tərəfin etdiyi cəhdlər nəticəsiz qalıb. Düşmən öz çirkin niyyətlərindən əl çəkməyərək, şəhidimizin cəsədini öz ölkəsinə qaytarmır.**

# Əsgərimizin cəsədinin düşmən tərəfdə qalmasından 1 ay ötdü

## Beynəlxalq qurumlar ermənipərəst mövqelərinə, düşmən isə həyasızlığına davam edir

Beynəlxalq təşkilatlar, istər ATƏT-in Minsk Qrupu olsun, istərsə də, Beynəlxalq Qırmızı Xaç Komitəsi, son bir ayda bu istiqamətdə diqqətçəkən fəaliyyət göstərməyiblər. Bu da haqlı olaraq, Azərbaycan ictimaiyyətində ciddi etiraz doğurub və bu qurumların ünvanına sərt tənqidlər səslənir.

Minsk Qrupunun həmsədr ölkələri Rusiya, ABŞ və Fransa da şəhid əsgərimizin nəşinin düşmən tərəfdə qalmasına göz yumurlar. Təsadüfi deyil ki, bununla bağlı sərt bəyanata belə rast gəlməmişik. Bütün bunlar da beynəlxalq qurumların ermənipərəst mövqelərini bir daha ortaya qoyur.



Çingiz Qurbanov

"Sivilizasiyalar və konfliktlər" Analitik Mərkəzinin rəhbəri Əhəd Məmmədli hesab edir ki, şəhid əsgərimizin cəsədinin qaytarılması istiqamətindəki fəaliyyət diqqətçəkən deyil: "Minsk Qrupunun fəaliyyəti artıq heç nəyi həll etmir. Sadəcə gözdən pərdə asmaq üçün mövcud olduqlarını göstərməyə çalışırlar. Burada biz ABŞ, Fransa və Rusiyanın təpkisini görmədik. Təəssüf ki, Azərbaycan hökumətində də sanki bir fikir formalaşıb, bu məsələni çox qaldırmayaq, onsuz da nəticəsi olmayacaq. Azərbaycanın Xarici İşlər Nazirliyi Minsk Qrupu ölkələrinin qarşısında sərt tələblər qaldırmalı idi ki, Ermənistan şəhid əsgərimizin nəşini qaytarsın. Amma sanki ortada nazirliyimiz tərəfindən hər üç ölkəyə qarşı ehtiyatlı siyasət var. Azərbaycan tərəfdən istər bu istiqamətdə, istərsə də, Sərkisyanın sayıqlamaları ilə bağlı bir tələb yoxdur. Lavrovun məlum açıqlamasına da Xarici İşlər Nazirliyi loyal münasibət sərgilədi. Artıq Ermənistan öyrəşib ki, nə istəsək edəcəyik, bizə qarşı da sərt təpki olmayacaq. Gələcəkdə bu kimi hallar yenidən təkrarlanarsa, artıq konkret həmsədr ölkələr qarşısında qəti şəkildə məsələ qaldırılmalıdır. Bu məsələ Rusiya ilə daha sərt şəkildə müzakirə olunmalıdır. Çünki Ermənistanın ən yaxın müttəfiqi bu dövlətdir. Azərbaycan nə zamana qədər Rusiya ilə yumşaq siyasət yürütsə, ermənilər bu cür həyasızlıqlarına davam edəcəklər. Ermənilər bu mövzu gündəmdən düşənə qədər cəsədi saxlamağa çalışacaqlar. Şəhidimizin nəşi vaxtında qaytarılmalı idi. İndiyə qədər ermənilər dəfələrlə bu cür ediblər. Biz çox istərdik ki, bu dəfə heç olmasa, bu məsələ daha tez həll olunsun. Söhbət burada canlı əsirdən getmir, bir meyitdən gedir. Azərbaycan diplomatiyası bunu həll etməyi bacarmır. Bu, Elmar Məmmədyarovun böyük problemidir. Qırmızı Xaç Komitəsi və digər beynəlxalq qurumlar hansısa dövlətlərə bağlıdırlar. Komitənin mərkəzi qərargahı Qərbdə yerləşir. Biz dövlət olaraq, Qərbə də sərt təpki göstərməliyik. Çünki həmsədr ölkələrdən ikisi Qərbdə yerləşir. Burada ən böyük sorun Xarici İşlər Nazirliyi və diplomatiyamızdadır. Diplomatiyamız, lobbilərimiz dişsiz işləyirlər. Cəsədin qaytarılmaması həm də bir psixoloji savaşdır. Düşmən tərəf göstərmək istəyirik ki, baxın istədiyim qədər əsir, yaxud cəsəd saxlaya bilərəm. Həm də mesaj vermək istəyirlər ki, beynəlxalq güclər də mənim tərəfimdədir, lobbim sayəsində ABŞ və Fransa yanımdadır, Azərbaycan sən təksən. Ölkəmizin bir Türkiyəsi var ki, o da problemlər içərisindədir. Şəhid əsgərimizin verilməməsi həm də daxili auditoriyaya hesablanıb. Sərkisyan rejimi bundan daxildə təbliğat kimi istifadə edir".

❑ **Cavanşir ABBASLI**

# Azərbaycanlı girovların müdafiəsinə qalxan Savçenko Ermənistanın qəzəbinə gəldi

## Erməni millətçilər Ukrayna Qəhrəmanını hətta Azərbaycan xüsusi xidmət orqanları ilə əməkdaşlıqda suçladılar

**Ukraynada səfərdə olan Azərbaycan Demokratiya və İnsan Haqları İnstitutunun (ADİHİ) rəhbəri Əhməd Şahidov yanvarın 27-də Ukrayna parlamentinin deputatı, Milli Qəhrəman Nadejda Savçenko ilə görüşüb.**



Xatırladaq ki, Ukraynadakı Azərbaycan diasporunun tanınmış simalarından olan Elxan Nuriyev və Vüqar Həsənovun da iştirak etdikləri görüşdə azərbaybaycanlı girovlar Dilqəm Əsgərov və Şahbaz Quliyev barədə ətraflı məlumat verən ADİHİ rəhbəri girovların azad edilməsi istiqamətində görülən işlərdən danışıb, məsələnin beynəlxalq səviyyəyə qaldırılmasının və Ermənistan hakimiyyətinə beynəlxalq təzyiqlərin gücləndirilməsinin zəruriliyini vurğulayıb.

Dilqəm Əsgərov və Şahbaz Quliyev barədə lazımi məlumatları, sənəd və fotoları Nadejda Savçenkoya təqdim edən ADİHİ rəhbəri konkret detalları müzakirə edib. Özünün də Moskvada girovluqda saxlanıldığını və bu sahədə ciddi təcrübəsinin olduğunu bildirən N.Savçenko kəlbəcərli girovlarla bağlı beynəlxalq kampaniya başlatmaq təklifini müsbət qarşılayıb və bu işdə əlindən gələni edəcəyini bildirib.

Ukraynanın Milli Qəhrəmanı N.Savçenko bu məsələ ilə bağlı həm Ukrayna Radasında, həm də Ukrayna mətbuatında məsələ qaldıracağını, habelə Avropanın aparıcı insan haqları təşkilatlarının rəhbərləri ilə görüşdə azərbaycanlı girovların azadlığa çıxması üçün fəaliyyət göstərəcəyini də bildirib.

Virtualaz.org-un Ermənistan bölməsi bildirir ki, Ukrayna Ali Radası deputatının bu bəyanatı erməni millətçiləri arasında əsl isteriya dalğası doğurub. Sarkisyanı dəstəkləyən bloggerlər və sosial şəbəkələrin aktiv istifadəçiləri təkcə Savçenkoya yox, bütövlükdə Ukraynaya qarşı əsl cəbhə açıblar. Facebook-dakı millətçilər Ukraynanın Qəhrəmanı Savçenkonu hətta Azərbaycan xüsusi xidmət orqanlarının əməkdaşı olmaqda ittiham edir, Ukraynanı isə "anti-erməni əhval-ruhiyyəsinin mənbəyi" adlandırırlar.

Bir çox erməni KİV-ləri politoloq Qaqik Ambaryanın bəyanatını məhz belə başlıqla - "Ukrayna - antierməni əhval-ruhiyyəsinin mənbəyi" dərc ediblər. Ambaryan Ukraynanı və onun hakimiyyətini Ermənistana qarşı bir sıra demarşlarda açıq ittiham edir və buna səbəb kimi BMT-də Ukraynanın ərazi bütövlüyü məsələsi müzakirə edilərkən Ermənistanın tutduğu mövqeni göstərir. Politoloqun fikrincə, Ukrayna onun əleyhinə olan həmin mövqeyə görə (Ermənistan Krımı Rusiyanın bir hissəsi kimi tanıdığını bəyan etmişdi - red.) Ermənistandan qisas alır.

Politoloq Ukraynadakı Ermənistan səfirliyini və Ukraynada ermənilərin konqresinin sədri Aşot Avanesyanı da fəaliyyətsizlikdə ittiham edib. Ambaryan lap sonda yazıb: "İstehza doğuran odur ki, İrəvan həmin mövqe ilə Ukraynanı özünə qarşı kökləyəndən sonra nə Ermənistan, nə də Qarabağ Rusiyadan, demək olar, heç nə almadı".

# Milli sürücülüyün xarakterik xüsusiyyətləri



**Samir SARI**

**Yaxın-uzaq xaricdən gələn qohum-əqrəba ilə, dost-tanışla birlikdə şəhərin küçələrində bir az gəzəndən sonra adətən adama belə bir sual verirlər: "Siz bu şəhərdə necə maşın sürürsünüz?"**

O mənada ki, maşını necə sürürsünüz ki, salamat qalırsınız, qəzalarda qırılıb getmirsiniz.

Biz də öz şəxsi təcrübəmizi bölüşürük, paytaxtda avtomobil sürərək salamat qalmağın incəliklərini xırdalayırıq.

Deyirik ki, bundan ötrü azərbaycanlı sürücülərin xarakterik xüsusiyyətlərini bilmək lazımdır. Sən burada avropalı, iranlı kimi maşın sürə bilməzsən, məhz azərbaycanlı kimi sürməlisən.

Məsələn, deyirik ki, azərbaycanlı sürücü:

Saatda 120 km sürətlə sürməyə icazə verilən yollarda heç vaxt 100-120 sürməz, mütləq ya 150 ilə sürəcək, ya da 50-60-la;

əgər sürət limitini 150-yə qaldırsalar, 180-lə sürməyə çalışacaq;

dairələrdə, sıxlıqlarda daima əlini şüşədən çıxarıb başqa sürücülərdən yol verməlerini istəyəcək, amma özündən yol istəyənə verməyəcək;

bir himə bənddir, əsəbiləşək, maşınından vintaçan və ya başqa kəsici-deşici alət götürüb dalaşmağa düşəcək;

tıxac zamanı asta-asta irəliləyən maşınların cərgəsini tez-tez pozacaq, birinci cərgədəysə, ikinciyə, ikinci cərgədəysə birinciyə keçməyə çalışacaq;

avtomobilinin pəncərəsindən yola boş siqaret qutusu və kötüyü, banan (və sair mer-meyvə) qabığı, sellofon torbalar atacaq;

küçənin ortasında maşını iki dəqiqəliyə saxlayıb aptekə (mağazaya) girəcək, iyirmi dəqiqə alış-veriş edib qayıtdıqdan sonra ona "yolu kəsmisən, tıxac yaratmısan" deyənlərə "görmürsüz, avariyni işığı yandırmışam" deyəcək, onları borclu çıxaracaq;

zolaqlı piyada keçidlərində müşahidə kamerası yoxdursa, piyadalara yol verməyəcək, məcbur qalıb versə də, var-yoxlarına söyəcək;

150 metrdən sonra sağa dönməlidirsə, dönəcəyi yerə 50 metr qalmış önündəki avtomobili ötəcək, sonra kəskin tormozlama edərək sağa burulacaq;

İşıqforun yaşıl işığının sönməsinə 1 saniyə qalsa da hərəkətə başlayacaq, önündə maşınlar olması səbəbindən yolun ortasında qalacaq və soldan-sağa, sağdan-sola hərəkət edənlərin yolunu kəsəcək;

İkitərəfli yollarda özünün hərəkət istiqamətində tıxac və ya sıxlıq varsa, mütləq qarşıdan gələn avtomobillərin yoluna çıxıb qabağa düşmək istəyəcək, nəticədə ikitərəfli tıxac yaradacaq;

Sürətlə getdiyi yerdə yol kənarında boyalı və qısa ətəkli qadın görsə, 50-70 metr irəlidə saxlayacaq, geriyə hərəkət edərək, qadına "gəl, otur, istədiyin yerə aparım" deyəcək;

"Mən içəndə maşını daha yaxşı sürürəm" deyə məclislərdə spirtli içki içəcək, ya israrlardan sonra "ayıq sürücü" xidmətinə müraciət edəcək, ya da dostlarının "bir şey olmaz, əşi" tövsiyəsinə qulaq asaraq sükan arxasına oturub gedəcək;

işıqforda xəyala dalacaq, yaşıl işığın yanmasından 5 saniyə sonra, arxadakı maşınlar siqnallayanda xəbər tutacaq;

təhlükəsizlik kəmərini yalnız yol polisinin xətrinə (mübahisə olmasın deyə) taxacaq;

ünvanına cərimə kağızları gələndə təəccüblənəcək, "şəhəri kameraxanaya döndəriblər ey, ta maşın sürmək də olmur" deyə gileylənəcək, cərimələri sildirmək üçün tanış axtaracaq;

avtomobilini ürəyi istədiyi yerdə park edəcək, gəlib yerində tapmayanda, maşının evakuatorla aparıldığını öyrənib hiddətlənəcək, A-dan Z-yə qədər bütün "günahkar"ları söyəcək;

yol polisləri ilə prinsipial mübahisələr edərək, onları yerində oturduğu, "nakazat" etdirdiyi barədə yeddi-səkkiz əfsanə danışacaq və s. və i.a.

Bütün bunları bilən və nəzərə alandan sonra şəhərdə avtomobil idarə etmək o qədər də çətin deyil. Bir də avtobusların arxasınca, taksilərin qabağınca getmək olmaz. Birincilər hər dəqiqə saxlaya bilərlər, ikincilər isə mütləq ötmək (sağdan, soldan, altdan, üstdən) istəyəcəklər. Qar yağanda, buz olanda naşı sürücülərin ellikcə yola çıxacaqlarını da nəzərə almaq gərəkdir.

Əgər siz yolla hərəkət edərkən önünüzdə ara məsafəsi saxlayan, piyadaya yol verən, ötmə əməliyyatı aparanda işıq siqnalından istifadə edən, tez-tez cərgə dəyişməyən, sürət həddini aşmayan, sarı və qırmızı işıqda keçməyən, bütün qayda-qanunlara birəbir riayət edən sürücü görürsünüzsə, ya Belçikada-filandasınız, ya da Bakıdasınız, amma o sürücü azərbaycanlı deyil.

YENİ MÜSAVAT
N 20 (6634) 30 yanvar 2017

**Yanvarın 19-da İranın Azərbaycandakı səfirinin ikinci katibi Mehdi Arifzadənin REAL hərəkatının ofisində qurumun funksionerləri ilə görüşü bir sıra müzakirələrə səbəb olub. Yanvarın 27-də virtualaz.org saytında "İran xəfiyyəsi Bakıda İlqar Məmmədovun adamları ilə görüşdü, REAL-a pul ayırdı" başlıqlı yayılan məqalədə səslənən şok iddialar hərəkatı hədəfə gətirib.**

# REAL ətrafında nə baş verir? - Hərəkatın daha bir funksioneri bu gün dindiriləcək

Yazıda iddia olunduğuna görə, görüşdə REAL-çılar İran səfirliyi və müxalif "milli-demokratlar" arasında vasitəçilik etməyə boyun olaraq, üstəlik, İrandan ilk maliyyə dəstəyi də alıblar. Bundan sonra Baş Prokurorluq araşdırmalara başlayıb. Yanvarın 28-də REAL-ın İdarə Heyətinin üzvü Azər Qasımlı Baş Prokurorluğun Ağır Cinayətlərə dair İstintaq İdarəsinə çağırılıb. "Azadlıq" Radiosuna açıqlama verən REAL funksionerinin sözlərinə görə, yanvarın 19-da İranın Azərbaycandakı səfirliyinin əməkdaşı REAL-ın ofisinə gələrək, onlarla görüşüb: "Almaniyanın, ABŞ-ın, Böyük Britaniyanın, digər səfirliklərin də əməkdaşları bizim ofisdə olublar. İran səfirliyinin əməkdaşı ilə görüşdən dərhal sonra mətbuat üçün açıqlama yaydıq, facebook səhifələrimizdə fotolar paylaşdıq".

Azər Qasımlı deyir ki, istintaqı REAL-ın partiyalaşması məsələsi də maraqlandırıb və o, bu istiqamətdə də sualları cavablandırıb: "Birinci gün də təşkilatın icraçı katibi Natiq Cəfərli istintaqa çağırılıb".

N.Cəfərli isə "Yeni Müsavat"a açıqlamasında bunları dedi: "Yanvarın 30-da saat 11:00-da istintaq idarəsinə çağırılmışam. Mənim o dövlət orqanına dəvət almağım ilk deyil, indiyə qədər bu, dəfələrlə olub - müxtəlif işlərlə bağlı. Çox güman ki, bu yazı ilə bağlı müxtəlif suallar olacaq. O suallara səmimi şəkildə, necə baş veribsə, o cür də izahımı verəcəm. Açığı, ciddi bir şeyin olacağını da gözləmirəm. Onu bildirim ki, məqalədə qeyd olunanlar ittiham deyil, iddiadır. Bəzi hallarda sözlükləri düzgün qurmurlar. Buna Eynulla Fətullayevin xəyal məhsulu deyə bilərsiniz. Bir şəxs özündən məqalə yazır, dövlət qurumları da bununla bağlı araşdırmalar aparır, sifarişli bir yazıdır. Sifarişin məqsədi də yazıdan istifadə edərək, REAL-a qarşı basqıları genişləndirməkdir. Burada ittihamdan söhbət belə getmir, heç REAL-a qarşı ittiham da irəli sürülməyib. Həmin saytda son üç gündə bəzi dövlət məmurlarının villaları, evləri barədə yazılar dərc olunub. Niyə onunla bağlı araşdırmalar aparılmır? Qapımız açıqdır. Səhərisi gün Azərbaycanda fəaliyyət göstərən istənilən səfirliyin müraciəti olsa, görüşə hazırıq. Səfirlikləri qoyaq bir kənara, hətta dövlət qurumların, nazirliklərin nümayəndələri görüşmək istəsələr, fikir mübadiləsi aparmaq istəsələr, məmnuniyyətlə razılıq verərik. Biz indi nə edək ki, dövlət qurumları, nazirliklərin nümayəndələri fikir mübadiləsi aparmaq istəmirlər. Amma xarici səfirliklərin nümayəndələri buna ehtiyac duyurlar. İndiyə qədər bizim ofisdə onlarla belə görüş olub. Bu da növbəti görüşlərdən biri idi. Əsas söhbət Azərbaycandakı iqtisadi durumla, eləcə də, İranın burada investisiya potensialı ilə bağlı oldu. Ötən il dörd dəfə, iki dəfə ABŞ səfirinin özü, iki dəfə də səfirliyin nümayəndələri ofisimizdə olublar. Müəyyən fikir mübadilələri aparmışdıq. Beynəlxalq praktikada bunlar normal bir şeylərdir. Ölkədə fəaliyyət siyasi qurumların, vətəndaş cəmiyyətinin nümayəndələri ilə belə görüşlər normaldır. Biz siyasi təşkilatıqsa, əsas məqsədlərimizdən də biri də belə görüşlərin keçirilməsidir. Başqa nə işlə məşğul olmalıyıq? Belə görüşlər bizim fəaliyyətimizin bir qanadıdır. Əslində REAL-ın hədəfə alınması bu günün işi deyil. REAL yarandığı gündən dəfələrlə basqılarla üz-üzə qalıb. Bu ilk dəfə deyil ki, sədrimiz 4 ildir həbsdədir. Fevralın 4-də İlqar Məmmədovun həbsinin 4 ili tamam olacaq. Ötən ilin avqust ayında mənimlə bağlı da həbs qərarı verilmişdi. Sonrada qərar dəyişdirilsə də, hələ də cinayət işi bağlanmayıb. Mənim nəinki ölkəni, heç Bakını belə tərk etməməyimlə bağlı qərar var. İdarə Heyətinin digər üzvləri ilə bağlı da cinayət araşdırmaları olub. Təəssüflər olsun ki, bu ilk olmadığı kimi, son da deyil. REAL tam açıq və şəffaf təşkilatdır. REAL-la istənilən mövzuda fikir mübadiləsi aparmaq istəyənlərlə görüşə biz hazırıq".

## Natiq Cəfərli: "Burada ittihamdan yox, iddiadan söhbət gedir"



N.Cəfərli Azərbaycan-İran əlaqələrinə bu olayın ciddi zərbə vura biləcəyini də vurğuladı: "İranla son zamanlar normal münasibətlər qurulmuş, qonşu ölkədən yüksək rütbəli nümayəndələr ölkəmizə gəlib, Azərbaycan rəhbərliyi ilə görüşlər keçiriblər. Azərbaycan böyük bir layihənin - "Şimal-Cənub" layihəsinin əsas investorlarından və təşəbbüskarlarından biridir. Hətta deyərdim ki, çox doğru təşəbbüsdür. İranla əlaqələrin artması çox normaldır. Azərbaycanın qonşu dövlətidir və 80 milyonluq bazardır. Gələcəkdə ölkə iqtisadiyyatını inkişaf etdirmək istəyiriksə, bu bazardan istifadə etməliyik. 80 milyonluq bazar gələcəkdə bizim iqtisadiyyata yüksək töhfələr verər. Bu nöqteyi-nəzərdən əlaqələrin genişlənməsi normaldır. Dövlət tərəfindən də bu yöndə müsbət addımlar atılır. İran səfirliyinin nümayəndəsi ofisimizə gəldiyi gündə İranın iki naziri ölkəmizdə səfərdə idi. Cənab prezident və nazirlərlə görüşdü. Belə əlaqələrin fonunda bir şəxsin yazısı ilə araşdırmaların aparılması gələcəkdə ölkələrarası münasibətlərə xələl gətirə bilər".

❑ Cavanşir ABBASLI

# Deputat köçkünlərin etirazından danışdı - "Ehtiyacı olan təbəqə zərbə almamalıdır"

## Elman Məmmədov: "Çalışacağıq ki, hər şey əhalinin tələblərinə uyğun şəkildə həll olunsun"



**Yanvarın 27-də Bakının Sabunçu rayonu Pirşağı qəsəbəsindəki Məşəl, Tonqal, Lalə və digər düşərgələrdə yaşayan məcburi köçkünlərlə "Azərişıq" ASC-nin əməkdaşları və polislər arasında insident baş verib.**

Gununsesi.info saytının yaydığı məlumata görə, köçkünlər onlara ayrılan kommunal xərclərlə bağlı limitin ləğvinə və sayğaclaşdırmaya etiraz ediblər. Saytın yazdığına görə, sakinlər bildiriblər ki, günlərlə bu ərazidə qaz olmur və bir çox evlər qazlaşdırılmayıb. Həmçinin, onlar bir çox kommunal xidmətlərdən istifadə etmirlər.

Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan Şuşa-Füzuli-Xocalı-Xocavənd seçki dairəsi üzrə deputat Elman Məmmədov etiraz edən əhali ilə görüşəcəyini dedi: "Elə bu gün (dünən-red.) ora gedib, həmin insanlarla görüşəcəyik. Vəziyyətin nə yerdə olduğunu öyrənib, problemin həllinə çalışacağıq. Cənab prezidentin sərəncamı olub və biz də onunla bağlı camaatın içərisində müəyyən məsələləri aydınlaşdıracağıq. Təbii ki, müəyyən məsələlər var ki, onları əhaliyə aydınlaşdırmağa, izah etməyə ehtiyac var. Ümumi məqsədimiz bu olmalıdır ki, əhalimizin sosial müdafiəsi üçün lazımı tədbirlər görülsün. Yəni bu istiqamətdə problem yaranmasın. Sərəncamla bağlı qeyd etdiyim kimi əsas olan, müəyyən məsələləri aydınlaşdırmaqdır. Bundan əlavə isə hər birimiz çalışmalıyıq ki, ehtiyacı olan camaatımıza kömək olaq. Məqsədimiz də yalnız budur".



Deputat bildirib ki, müvafiq sərəncamdan əlavə, məlum olduğu kimi Nazirlər Kabinetinin də bu məsələ ilə bağlı qərarı var: "Lakin bununla yanaşı, müəyyən analizlər də aparılmalıdır. Burada elə təbəqə var ki, onların ehtiyacları böyükdür. Əhaliyə məsələni aydınlaşdırmaqla bərabər, ciddi təhlillər də aparılmalıdır. Müvafiq orqanların əsas borcu da bu istiqamətdə işlər aparmaqdır. Təbii ki, biz də millət vəkili olaraq üzərimizə düşən vəzifəni çalışacağıq ki, onlarla bərabər icra edək. Çalışacağıq ki, hər şey inzibati qaydada yox, əhalinin tələblərinə uyğun şəkildə həll olunsun. Şəxsən mən buna istiqamətlənmişəm ki, işlər insanların tələblərinin ödənilməsi yönündə olsun".

Etirazlar barəsində danışan E. Məmmədov bildirib ki, burada başqa məsələlər də var: "Telefon vasitəsi ilə hər şeyi aydınlaşdırmaq mümkün deyil. Orada problemlər çoxdur. Telefon söhbəti deyil. Dünən elə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində müşavirə çağırılmışdı. Biz hamımız orada iştirak etdik. Yəni araşdırmalar nəticəsində burada, o məsələlərdən də əlavə problemlər ortaya çıxır. Ancaq ümumi bir xətt və məqsəd ondan ibarətdir ki, məsələ inzibatçıların, qərar verənlərin istədiyi kimi yox, camaatımızın, xalqımızın əsas ehtiyacları üzrə öz həllini tapsın. Fərman və sərəncamla bağlı istədiyimiz odur ki, ehtiyacı olan təbəqəyə zərbə dəyməsin. Əksinə, onlara köməklik edə bilək".

Xatırladaq ki, prezident İlham Əliyev yanvarın 23-də "Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin müəyyən edilməsi haqqında" fərman imzalayıb. Həmin sənədə əsasən, məcburi köçkünlərə, onlara bərabər tutulan şəxslərə yemək xərci müavinəti, kommunal və digər xidmətlər üzrə dövlət büdcəsindən ödənişlər dayandırılır. Bunun əvəzinə onlara hər ay 36 manat məbləğində vahid aylıq müavinət veriləcək.

Onu da qeyd edək ki, Pirşağıdan öncə yanvarın 26-da məsələ ilə bağlı Yasamal rayonunda, Şərifzadə küçəsi, Akademik Mirqasımov adına Respublika Kliniki Xəstəxanasıyla üzbəüz binada yaşayan məcburi köçkünlər etiraz aksiyası keçiriblər. Onlar etiraz əlaməti olaraq yolu bağlamağa cəhd ediblər. Bildiriblər ki, kommunal qiymətlərin qaldırıldığı bir vaxtda onlar işığın və qazın pulunu ödəyə bilməyəcəklər. Lakin hadisə yerinə cəlb olunan Post-Patrul Xidmətinin əməkdaşları köçkünlərin yolu bağlamasına mane olublar.

❑ Əli RƏİS

“Baxış bucağı”

# “Rusiya istəyir ki, Azərbaycan onun qoltuğuna girsin”

## Hikmət Hacızadə: “Elə bir şey olsaydı, jurnalisti çağırıb ona qonaqlıq verərdim”

**ABŞ-ın yeni prezidenti Donald Trampın səlahiyyəti dövründə dünyanın düzəninin dəyişəcəyi ilə bağlı müzakirələr davam etdikcə Rusiya da ortaya iddialar qoymaqdadır. Elə şimal qonşumuzun baş diplomatı Sergey Lavrovun Azərbaycan və Qarabağla bağlı ciddi rezonansa səbəb olan açıqlaması Kremlin Qafqaza, ümumiyyətlə, postsovet məkanına iddiasının növbəti əlaməti kimi dəyərləndirilir. Azərbaycanın Rusiyadakı sabiq səfiri, politoloq Hikmət Hacızadə ilə bu mövzunu da əhatə edən müsahibəni təqdim edirik:**

***- Hikmət bəy, sizə yaxşı tanış olan ölkənin, Rusiyanın xarici işlər nazirinin Qarabağla bağlı dedikləri hələ də müzakirə olunur. Siz bu ərəfədə şimaldan gələn reaksiyanı necə qəbul etdiniz?***

- Məsələ belədir ki, Lavrovun bu şəkildə çıxışı mənimçün yeni bir şey olmadı. Əslində Lavrov Rusiya hökumətinin başında, ürəyində olduğunu səsləndirdi. Biz hamımız dəfələrlə deyirdik ki, Rusiya belə düşünür, Rusiya buranı idarə edir, Rusiya cürbəcür diplomatik yollar, işarələrlə hər kəsə “bura mənimkidir, mən həll edəcəyəm” deyir. İndi isə Lavrov təxminən həmin mövqeni açıqlayıb. Ona görə də burada mənümçün yeni bir şey yoxdur. Ruslar həmişə belə düşünüb - baxmayaraq ki, onlar bu barədə danışmırdılar, amma Lavrov danışdı. Sağ olsun, mən heç təəccüblənmədim.

***- Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlunun rus nazirə sual verən jurnalistə sərt təpinməsi, hətta onun işdən çıxarılmasına nail olduğu barədə xəbərlər yayıldı. Səfiri tənqid edənlərlə yanaşı, onun mövqeyinə bəraət qazandıranlar da oldu. Sizin mövqeyiniz necədir, səfir haqlı idimi?***

- Onun yanaşması haqqında səfirlik təkzib verib ki, burada bizlik bir iş yoxdur, məsələ bizlik deyil, gedin Lider TV-dən soruşun. Əgər kimsə dəqiq araşdırsa ki, bəli, bu hadisə Polad Bülbüloğlunun zəngindən sonra olub, onda biz də münasibət bildirərik. Hələ ki, dəqiq məlumat yoxdur. Şayiə ilə nəsə deyə bilmərik.

***- Siz belə məqamda Rusiyada Azərbaycanın səfiri olsaydınız, necə davranardınız? Rusiya XİN başçısının belə mövqeyinin qarşılığında nə edərdiniz?***

- Elə bir şey olsaydı, mən qarışmazdım, çağırardım o jurnalisti, bir qonaqlıq verərdim. Amma mən dəqiq bilmirəm ki, Polad Bülbüloğlu belə bir şey edib, ya etməyib.

***- Belə situasiyalarda elçi yalnız paytaxtından komanda, təlimat gözləməlidir, yoxsa özünün də mövqeyi olmalıdır?***

- Əslində səfir də bir məmurdur, o da bir mexanizmin hissəsidir və vacib məsələlərdə, əlbəttə ki, öz nazirindən və ya prezidentindən göstəriş gözləməli, sonra addımlar atmalıdır. Əgər hansısa çətin situasiyada ordan heç bir xəbər gəlmir və ya deyirlər bax, gör özün neynirsən, onda səfir hansısa hərəkət edə bilər. Amma ölkəsindən təlimat gəlirsə, deməli, səfir ona əməl etməlidir. Yox, əgər verilən əmr, ya sərəncamla razı deyilsə, onda istefa verib getməlidir.

***- Siz də münasibətlərin olduqca gərgin dövründə səfirliyə rəhbərlik etmisiniz. Təcrübənizdə belə bir situasiya baş veribmi? Maraqlıdır, Rusiya XİN başçısının belə mövqeyinin qarşılığında nə edərdiniz?***

- Mən bizim rəhbərliklə ziddiyyətli məqam yaşamadım. Nə sərəncam, nə əmr gəlirdi, yerinə yetirirdim. Çünki bu, vəzifə borcum idi. Hətta paytaxtdan xəbər gəlməyəndə və ya azadlıq yarananda mən demokratik hökumətin ümumi siyasətinə arxalanaraq addımlar atırdım. Mənim təcrübəmdə belə şey olmayıb.

***- Hikmət bəy, sizin səfir olduğunuz dövrdə prezident Əbülfəz Elçibəy idi və hesab olunurdu ki, Bakı-Moskva arasındakı problemlər cəbhə hakimiyyətinin olmasından qaynaqlanır. Amma axı indi Azərbaycan hakimiyyətində başqa qüvvələrdir və mövcud iqtidar daim şimal qonşumuzla münasibətlərə önəm verir. Lakin Rusiyanın Azərbaycana münasibəti yenə də dəyişməz olaraq qalır. Bunun səbəbi nədir?***

- Tamamilə düzgün sual qoyursunuz. İllər boyu Elçibəyi sərt siyasət yeritməkdə ittiham edirdilər, sübut olundu ki, bunlar hamısı əbəs şeymiş. İndi yeni hökumət var, Elçibəyin siyasətini bəyənmirlər, elan edirlər ki, biz yeni siyasət yürüdəcəyik. Amma “köhnə hamam, köhnə tas”. Heç nə dəyişmir, yenə də Rusiya Ermənistanın tərəfindədir və yenə də heç nə edə bilmirik. Bu mənada sualınız tamamilə yerindədir.

***- Rusiya Azərbaycandan indi nə istəyir?***

- Rusiya istəyir ki, Azərbaycan onun qoltuğuna girsin, Azərbaycan onun dediyini etsin, Azərbaycan rus ordusunu təzədən bura qaytarsın. Rusiya istəyir ki, Azərbaycan iqtisadiyyatda, ticarətdə ilk növbədə rusun maraqlarını qorusun, özü müstəqil şəkildə addım atmasın. Rusiya istəyir ki, Azərbaycan Türkiyə ilə yox, Rusiya ilə qardaş olsun.

***- Rusiya doğrudanmı başa düşmək istəmir ki, Azərbaycanın Türkiyə, həmçinin Qərblə əlaqələri geridönməz xarakter alıb, yəni “qatar gedib”, artıq gecdir?***

- Qarabağ ki, onlardadır, bizi Qarabağla şantaj edirlər. “Sən Qarabağı qaytarmaq istəyirsənsə, onda bunları etməlisən” deyirlər. Ona görə də belə görünür ki, hələ “qatar” getməyib.

***- Amma Rusiyanın təcrübəsində aldığını qaytarmaq ənənəsi də yoxdur, nəyin bahasına olursa-olsun. Dünya yığışıb Krımı qaytara bilmir, Gürcüstan torpaqlarını da eləcə...***

- Elədir. Amma Rusiyanın təcrübəsində qaytarmaq da var. SSRİ dağılmadımı, xeyli ölkələr aradan çıxmadımı? Bunlar hamısı gözümüzün qabağında olub. Rusiyanın Polşa, Bolqarıstan və digərləri ilə bağlı planları başqa idi. Ancaq bu ölkələrlə bağlı uğursuzluğa düçar oldu. İndi də hayfını bizdən çıxır.



**“Mənim “yol xəritəmi” oxuyan yoxdur”**

**“Tramp bir az da sıxsa, Rusiya dağıla bilər, bax onda Qarabağ məsələsində şansımız çoxalacaq”**

***- Belə nikbin proqnozlar da var ki, Rusiyanın parçalanması nəticəsində postsovet məkanındakı münaqişələrin həllinə nail olmaq olar. Buna ümid etmək olarmı?***

- Təbii ki, ümid etmək olar. Ancaq hər şey Trampdan asılıdır. Baxır Tramp hansı siyasəti yeridəcək. Tramp bir az da sıxsa, Rusiya dağıla bilər. Bax onda Qarabağ məsələsində bizim şansımız çoxalacaq. O halda erməni ilə özümüz bacararıq.

***- Bəs, Tramp loyal siyasət yürüdərsə, o halda Rusiyanın “Yeni SSRİ” planları reallaşa, Putinin imperiyanı bərpa ilə bağlı “iştahı” arta bilərmi?***

-"Yeni SSRİ" yox, amma... Əlbəttə, sən Rusiyanı başlı-başına buraxsan, öz nüfuzunu bərpa etməyə çalışacaq. Nəticədə aqressivlik artacaq. Tramp heç nə eləməsə, Rusiyanı saxlamaq mümkün olmayacaq, Ukrayna, Azərbaycan, Gürcüstanı basacaq.

***- ABŞ-ın yeni prezidentini şantaj müzakirələri də getdi. Bunun arxasında doğrudanmı ciddi kəşfiyyat məlumatları var?***

- Mən onu deyə bilmərəm. Amma elə şey mümkündür.

***- Bəzi ekspertlər Ağ Evin yeni administrasiyasının dünyanın yenidən bölüşdürülməsinə qərar verə biləcəyini və nəticədə postsovet məkanının yenə də Kremlin “payı”na düşəcəyini ehtimal edir. Siz bu barədə nə deyə bilərsiniz?***

- O da ola bilər. Deyə bilər ki, Suriyadan çıx, Krımı götür! Yəni belə axmaq ssenari də ola bilər.

***- İndiki situsiyada Azərbaycan böyük bir gücün qarşısında qalmaq üçün hansı qüvvəyə ümid edə bilər?***

- Hələ ki bizim müttəfiqimiz Türkiyədir, o, bizə kömək edə bilər. Ancaq Türkiyə də çox çətin vəziyyətə düşüb. Bilmirik Amerikanın addımları nə olacaq. Ona görə də bir az gözləmək lazımdır. Əslində isə möhkəmlənmək istəyiriksə, - Etibar Məmmədovun sözü olmasın - mən bunu dəfələrlə demişəm, yenə deyəcəyəm, islahatlar aparmaq lazımdır. Biz özümüz möhkəmlənməliyik. Bizim iqtisadiyyatımız, cəmiyyətimiz, imicimiz... bunlara fikir vermək lazımdır. Dəyişmək lazımdır. Baxın, gündə bir siyahı dərc edirlər, Azərbaycan istənilən istiqamətdə sonuncu yerlərdədir. Belə ölkə ilə kim hesablaşacaq? Bizim vəziyyətimiz budur. Dəyişmək, güclənmək, barışmaq...Bunlar lazımdır bizə.

***- Qazaxıstan prezidenti Nursultan Nazarbayevin səlahiyyətlərindən imtina ilə bağlı açıqladığı mövqe kifayət qədər maraq doğurdu. Postsovet məkanında daha bir ölkə parlamentli respublikaya keçid ərəfəsindədir. Sizcə, qazax prezidentin bu qərarına səbəb nə oldu?***

- Mənə elə gəlir, iki şeydən qaynaqlanır. Birincisi, Nazarbayev müdrik adamdır, görünür ki, o möhkəm liderdir, xalqını düşünür. İkincisi də yaşlıdır, başa düşür ki, onun vaxtı azdır, əgər bəzi məsələlər həll olunmasa, ölkəsi sabah çox pis vəziyyətə düşə bilər. Əsasən onun bacarığı, ölkəni düşünməsi vacib məsələdir və bu, var.

***- Azərbaycanda da referendum sonrası mərhələdə islahatlar gündəmin əsas müzakirə mövzusudur. Hakimiyyət daxilində islahatlara mane olan qüvvələrin mövcudluğunu siz də təsdiqləyirsiniz?***

- Ümumiyyətlə, Azərbaycanda qüvvə qalmayıb, həm iqtidar, həm müxalifət, həm müstəqillər tərəfdə. Hamı susdurulub. Susduran adamlara da elə gəlir ki, sən camaatı susdurandan sonra hər şey yaxşı olacaq. Əslində hər şey pis oldu. Ölkənin sinir sistemi sıradan çıxdı, aşağıdan yuxarı siqnallar getmir və s.

***- Bir sıra hallarda kənar qüvvələr günahlandırılır. Azərbaycanda islahatların aparılmaması, yaxud ənənəvi idarəçilik sistemindən uzaqlaşmaması ilə bağlı şimal qonşumuzun hansısa bir şəkildə müqavimət göstərdiyini, təsir etdiyini demək olarmı?***

- Təbii ki, Moskva bunu istəmir, ancaq o, islahatlara mane ola bilməz. Əlbəttə ki, Kreml Azərbaycanda yenə də anti-Rusiya ritorikasının başlanmasını istəmir. Amma bunları kənara qoysaq, min dənə başqa addım var ki, onu etmək olar və lazımdır. Özü də onu etməyi sənə heç kəs qadağa qoymaz və kimsə qısqanmaz.

***- Məsələn?***

- Siyasi məhbusları azadlığa burax, monopoliyaları bağla, düzgün rəqabət, düzgün məhkəmə yarat! Buna Moskva heç bir maneə yaratmayacaq.

***- Hikmət bəy, ölkədəki intihar hadisələrinin artan tendensiyası narahatlıq doğurur. Siz bu fəlakətli statistikanın artmının səbəbini nədə görürsünüz?***

- Bu, ölkəni bürümüş böhranın nəticəsidir, başqa nə ola bilər ki? Hansısa orta səviyyə var. Tutaq ki, ayda 10 nəfər. İndi isə ayda 50 nəfər özünə qəsd edir. Bu, əlbəttə ki, ağır sosial, psixoloji və s. vəziyyətin nəticəsidir.

***- Hikmət Hacızadənin özünün vəziyyətdən çıxışla bağlı “yol xəritəsi” varmı?***

- Yol xəritəm var e, amma o xəritəyə baxan yoxdur. (gülür) İstənilən siyasətçini, iqtisadçını yuxudan oyatsan, sənə 1,2,3,4,5 məsələdən danışacaq, deyəcək bunu edək, onu edək. Məndə də elə şey var, gecəyarı yuxudan oyat, danışacağam. Amma faktiki olaraq mənim “yol xəritəmi” oxuyan yoxdur, ona görə də qalmışıq bu vəziyyətdə...

❑ **Elşad PAŞASOY**



# Əkilməmiş ağacın istintaqı

**Zamin HACI**
zaminhaci@gmail.com

**Respublikamızda mətbuata çox böyük diqqət var. Misal üçün, Füzuli rayonu, Aşağı Seyidəhmədli kəndində məktəbli Nail Heydərov kəndin 3 dükanında dəftər-qələm tapılmadığını rayondakı “Araz” qəzetinə yazaraq bildirmişdir. Bundan sonra rayon istehlak cəmiyyəti dükanı yoxlamış, faktın doğruluğu ortaya çıxmışdır və dükançı Heydər İbrahimova şiddətli töhmət verilmişdir.**

Əlbəttə, bütün bu hadisələr uzaq 1979-cu ildə baş vermişdir. İndi istəsən yanında adam başı kəsilməyini yaz - bir adamın vecinə olmaz. Ancaq bəzən maraqlı istisnalar olur.

Təzəlikcə bir sayt REAL vətəndaş hərəkatı üzvlərinin İranın Azərbaycandakı səfiri ilə görüşməsi, səfirdən pul alması haqda nəsə qırıldadıbdır. Bundan sonra baş prokurorluq REAL üzvlərini bir-bir çağırıb dindirir. Bunun nəyi maraqlıdır, yazım, oxucular intizarda qalmasın.

Öncə REAL haqda qeyd edim ki, bunlar deyəsən hələ siyasi partiya olmağı da mümkün edə bilməyiblər. Ya hökumət qoymur, ya özləri istəmir - açığı, bilmirəm. Deyəsən qeydiyyatda almırlar. Qurumun rəhbəri İlqar Məmmədov isə 4 ildir qanunsuz həbsdə saxlanılır. (Onu azadlığa buraxmaq haqda Avropa Məhkəməsinin - bizim ali instansiyanın qərarı var). Bəs qeydiyyata almadığın siyasi qurumu hansısa xarici təşkilatdan maliyyələşməkdə suçlamaq nə dərəcə etikdir? Aydın məsələdir, lap hesab edək tək siyasi partiya yox, ictimai qurumların da xaricdən pul alması qanunla qadağandır. Ancaq sən bunu deyəsən heç ictimai qurum olaraq da qeydə almamısan, sənədləri Ədliyyə Nazirliyində coraba doldurulub, top oynanılıb.

Yəni, belə əndrəbadi, qeyri-müəyyən bir hadisədir. Bir bayatımızda eynilə bu durum təsvir edilibdir:

“Bağban, mənə bar gətir,
Əsirgəmə, var gətir.
Əkilməmiş ağacdan
Dərilməmiş nar gətir".

Azərbaycan-İran münasibətləri həmişə sadə vətəndaşın başında çatlayır nədənsə. Rəhbərlik bir-biriylə yaxşı dil tapır, yeri gələndə qucaqlaşır, öpüşür, fısıldaşırlar. Xalq isə burdan Təbrizə həkimə gedəndə sərhəddə basabasda ölür. Ya da ordan bura ticarətə gələndə narkotik alverçisi adıyla tutub dama salırlar. Siyasi ittiham da çox olub. Son 23 ildə yapistlər bəlkə 230 adamı “İran agenti” adıyla damlayıblar. Olsun, buna sözümüz yoxdur. Qarışıq dünyadır, mütləq hərə kiminsə agenti olmalıdır. Ancaq bu işdə səmimiyyət hanı?

Niyə o şeylər ki, dövlətə, hakimiyyətə icazə verilir, vətəndaşa qadağan olunur? Xaricdən pul almaq, maliyyələşmək belə pis işdirsə, siz də eləməyin da bə! Azərbaycanın neçə milyard xarici borcu var, bunlar havadan yaranmayıb ki? Nəsə öhdəlik götürüb, əvəzində o dövlətlərə, banklara, beynəlxalq maliyyə qurumlarına nəsə milli mənafe ödəyib pul almısınız. Dövlət alanda kredit, vətəndaş alanda satqınçılıq olur, eləmi? Elə baş prokurorluğun REAL-ı dindirdiyi gün İslam İnkişaf Bankının vitse-prezidenti Sayed Ağa müəllimin intervüsü var idi, deyir Azərbaycana hər cür pul verməyə hazırıq, indiyə qədər isə 1 milyard 300 milyon dollar borc vermişik. İslam İnkişaf Bankın səhmlərinin 10 faizə yaxını məhz İrana aiddir. (müqayisə üçün: Azərbaycanın bu bankda payı 0,13 faizdir - heç 1 faizə də çatmır).

Beyləqandakı məktəbinə tualeti yaponlara düzəltdirən dövlətin öz vətəndaşının hansısa əcnəbi ilə görüşündən xoflanması tragikomikdir. Belə qüdrətlisənsə, buyur, tualeti də özün tik. Buyur, aftafanı özün burax. Əks halda məcbursan xaricdən maliyyələşən o tualetdə unitaza və aftafaya"böcək" quraşdırıb gələn səsləri dinləyəsən.

Sonda bir oxucu məktubu. Novxanıdan Sona xanım yazır: “Novxanıda guya yol çəkirlər. Bütün su krantlarını, su xətlərinin evlərə giriş hissəsini söküb aparıblar. Ya da kəsib harasa atıblar - heç kimə məlum deyil. ”Azəravtoyol" bizi boğaza yığıb. Hara şikayət edirik, baxan yoxdur. “Azərsu” da deyir biz bilmirik. İndi bu yol çəkilişi haçan bitəcək, evlərə su haçan veriləcək - bilinmir. Bir dövlət idarəsinin o biri dövlət idarəsi ilə əlaqəsi yoxdur. Biz susuzluqdan ölməliyik?"

# Lapşin məsələsi kulminasiya nöqtəsinə doğru - bu həftə blogger Bakıya göndəriləcək

## Ekspertlər kimin xahiş etməsindən asılı olmayaraq, Azərbaycanın ekstradisiyadan sonra qərar verməsini doğru sayırlar...

**Rəsmi Bakının tələbi ilə Belarusun paytaxtı Minskdə həbs olunan Rusiya, İsrail və Ukrayna vətəndaşı olan blogger Aleksandr Lapşinin məsələsinin necə sonuclanacağı ictimaiyyətin diqqət mərkəzindədir. Qeyd edək ki, artıq Lapşin Azərbaycan prezidenti İlham Əliyevə üzrxahlıq ərizəsi yazıb. Bloqqer məktubunda öz hərəkətlərinə görə üzr istəyib və Azərbaycana qarşı səhvinin sadəlövhlükdən baş verdiyini qeyd edib.**

Lakin üzrxahlıq məktubunda Dağlıq Qarabağın Azərbaycan ərazisi olduğunu, Azərbaycanın ərazi bütövlüyünü tanıdığını isə yazıb-yazmadığı barədə İsrail səfirliyinin konsulu heç bir açıqlama verməyib. Bunun ardınca A.Lapşinin anası Azərbaycan prezidentinə oğlunun əfv edilməsi üçün müraciət edib. Belarus prokurorluğu isə Lapşinin Azərbaycana ekstradisiya olunması barədə qərar verib. Lapşin qərarın ləğvi üçün Minsk Şəhər Məhkəməsinə müraciət etsə də, məhkəmə qərarı qüvvədə saxlayıb. Bundan sonra o, sonuncu və ən yuxarı instanisiyaya - Belarus Ali Məhkəməsinə mütaciət edib. Məhkəmə fevralın 4-də yekun qərar çıxaracaq.

Dünən isə Azərbaycan prezidenti İlham Əliyev Amerika Yəhudi Komitəsinin prezidenti Con Şapironun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Bəs, yəhudi qonaqların Lapşinin xahişini prezident Əliyevdən eləməsi mümkünmü? Belarus Ali Məhkməsi 4 fevralda Lapşinlə bağlı hansı qərarı verə bilər? Lapşin üzr istədi. Bundan sonra Azərbaycan nə etməlidir? Azərbaycanın ərazi bütövlüyünü tanıdığı, Dağlıq Qarabağın Azərbaycan ərazisi olduğunu üzrxahlıq ərizəsində açıq şəkildə yazmaybsa, sadəcə, ümumi üzrxahlıq kifayətdirmi?

Politoloq Elxan Şahinoğlu bildirdi ki, bu işi sona çatdırmaq lazımdır ki, başqalarına da dərs olsun: “ABŞ Yəhudi Komitəsinin Azərbaycan prezidentindən Lapşinlə bağlı xahiş edib-etmədiyini dəqiq söyləmək mümkün deyil. Bütün xahiş və üzrxahlıqlara baxmayaraq, Lapşinin Bakya ekstradisiyasına nail olmaq lazımdır. Məhkəmə keçirilməli, cəza almalı, bundan sonra onun əfvi mümkündür. Yoxsa, Bakıya ekstradisiya etmədən onu bağışlamamız ciddiliyimizi şübhə altına ala bilər. Bu jurnalist qanunlarımızı düz iki dəfə bilərəkdən pozub. Ona görə cavab verməlidir. O bizim məhkəmənin qərarını görmədən, öz üzərində hiss etmədən yalnız üzrxahlıq məktubu ilə aradan çıxsa, kim zəmanət verə bilər ki, o və onun kimilər əməllərinə davam etməyəcəklər? Ermənistan və erməni lobbisi bilməlidir ki, üçüncü ölkə vətəndaşlarını Azərbaycana qarşı qanunsuz hərəkətlərə həvəsləndirəndə bunun cavabı gələcək”.

Politoloq Elçin Mirzəbəyli isə bildirdi ki, Amerika Yəhudi Komitəsinin prezidenti Con Şapironun başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfəri Aleksandr Lapşinlə bağlı məsələyə diqqət yetirilməyəcək qədər önəmli bir hadisədir: “Azərbaycan prezidenti ilə görüşdə Lapşinlə bağlı məsələnin müzakirə olunub-olunmadığını deyə bilmərəm. Amma hesab edirəm ki, Lapşinlə bağlı məsələ bu görüşdə müzakirə olunacaq qədər önəmli deyil. Bu, Azərbaycan hüquq-mühafizə orqanlarının gündəlik fəaliyyət dairəsinə daxil ola biləcək məsələlərdən biridir. Bildiyiniz kimi, Minsk Məhkəməsi Lapşinin vəsadətini təmin etməyib. Çox güman ki, Belarus Ali Məhkəməsi də qərarı qüvvədə saxlayacaq. Minsk bu məsələdə məsuliyyəti öz üzərinə götürməyəcək. Çünki Belarus həm Azərbaycanla münasibətlərə böyük önəm verir, həm də Lapşinlə bağlı faktın hüquq müstəvisindən kənara çıxmasını arzulamır. Minsk bu məsələyə siyasi müstəvidən yanaşmadığını sərgiləmək üçün sonunadək hüquqi prosedurlara əməl edəcək. Çalışacaq ki, son qərarı rəsmi Bakı versin”.

Ekspertin fikrincə, Lapşin Azərbaycana gətirilməlidir: “Onun ekstradisiyasından sonra haqqında veriləcək qərarın heç bir önəmi yoxdur. Əsas məsələ onun Bakıya gətirilmısidir. Bu məsələnin hüquqi, siyasi və mənəvi yükü Azərbaycan sərhədlərini pozan, ölkəmizin ərazi bütövlüyünü şübhə altına alan davranışlara yol verən bu şəxsin Azərbaycana gətirilməsidir. Lapşinin Azərbaycana gətirilməsi bu məsələdə həm hüquqi presedent yaradacaq, həm də çox önəmli bir mesaj olacaq”.

E.Mirzəbəyli dedi ki, Lapşinin üzrxahlıq məktubu İsrailin məsləhəti və bu ölkənin Belarusdakı konsulunun iştirakı ilə yazılıb: “Bu isə Azərbaycana ikili vətəndaşlığı olan Lapşinə münasibətdə İsrail vətəndaşı kimi davranmağa imkan verir. Ola bilsin ki, bu amil Azərbaycan tərəfindən nəzərə alınsın. Amma məsələnin digər tərəfi də var. Azərbaycan Lapşinin saxlanılması ilə bağlı Belarusa rəsmi müraciət edib. Daha sonra onun Azərbaycana ekstradisiyasını əsaslandıran sənədlər Belarusa göndərilib və adıçəkilən ölkənin prokurorluğu da ölkəmizin tələbini təmin edib. Əgər Azərbaycan Lapşinin üzrxahlığını nəzərə alacaqsa, o zaman bu, müvafiq hüquqi prosedurlar səviyyəsində həyata keçirilə bilər. Ortalıqda cinayət işi və hüquqi qərarlar var. Yəni ya Lapşinin Ali Məhkəməyə şikayəti təmin edilməli, ya da ekstradisiyadan sonra Azərbaycan tərəfi müvafiq qərar verməlidir. Bu, cinayət işinə xitam verilməsi, məhkəmə qərarı, yaxud əfv yolu ilə ola bilər”.

Politoloq Şahin Cəfərli isə bildirdi ki, indiyə qədər Azərbaycanın işğal altındakı ərazilərinə qanunsuz səfər etmiş çoxlu sayda xarici ölkə vətəndaşının adı Azərbaycan tərəfindən “qara siyahı”ya salınıb, onların ölkəyə girişinə qadağa qoyulub: “Bu, şübhəsiz ki, doğru praktikadır, çünki Dağlıq Qarabağın ziyarətlərin sərbəst olduğu bir bölgə halına gəlməsi tədricən separatçı rejimə beynəlxalq legitimlik qazandıra bilər. Eyni zamanda, Azərbaycan XİN belə bir praktika da tətbiq edir ki, ”qara siyahı"dakı şəxslər sonradan Azərbaycanın ərazi bütövlüyünü, Dağlıq Qarabağ üzərindəki suverenliyini tanıdıqlarını bəyan edərək üzr istədikdə, onlar əfv edilir, adları siyahıdan çıxarılır. Bunu da düzgün sayıram, çünki həmin şəxslərin bu addımından sonra onların adını siyahıda saxlamağa davam etmək bizə heç nə qazandırmaz. Aleksandr Lapşinin durumu isə bir az fərqlidir. Səhv etmirəmsə, o, işğal olunmuş ərazilərə qanunsuz səfərinə görə bu səviyyədə hüquqi təqibə məruz qalan ilk xarici vətəndaşdır. Bu da onun səfərlə kifayətlənməyib, Azərbaycanın ərazi bütövlüyünə qarşı çağırışlar etməsi, Ukrayna pasportunda adının fərqli yazılışından sui-istifadə edərək Azərbaycan dövlət orqanlarını aldatması və ölkə ərazisinə qanunsuz daxil olması ilə əlaqədardır. Ona görə də Lapşinin barəsində cinayət işi açılıb və o, beynəlxalq axtarışa verilib. Belarusun onu həbs etməsi və Azərbaycana ekstradisiya etmək qərarı bir tərəfdən iki ölkə münasibətlərinin kifayət qədər yüksək səviyyədə olduğunu göstərir, digər tərəfdən isə bu hadisənin çəkindirici amil kimi əhəmiyyəti böyükdür. Bu olay bir növ, başqaları üçün görk olacaq və onlar Lapşinin əməlini təkrarlamaqdan çəkinəcəklər".



Ekspert qeyd etdi ki, bloggerin Azərbaycandan rəsmi şəkildə üzr istəməsi və bu məsələdə İsrail tərəfinin iştirakı isə vəziyyəti dəyişir: “Məlum olduğu kimi, onun İsrail, Rusiya və Ukrayna vətəndaşlığı var. Rusiya hökuməti də Lapşinin həbsindən narahatlığını bildirib və Belarusu onu ekstradisiya etməməyə çağırıb. Məncə, həm üzrxahlıq, həm də İsrail və Rusiya kimi Azərbaycan hökumətinin yaxın tərəfdaşı olan mühüm dövlətlərin narahatlığı bu məsələdə öz rolunu oynayacaq. Lapşinin ekstradisiyadan sonra Azərbaycan tərəfindən bağışlanmasını mümkün sayıram”.

❑ **Etibar SEYİDAĞA**

## Qlobal ab-havanı hansı paytaxt diktə edəcək - günün sualı

**Donald Trampın Ağ Evə sahiblənməsindən 10 gün ötür. Dəniz suyunun dadını bilmək üçün damla yetərli olduğu kimi, ötən 10 gün də Trampın necə bir prezident olacağı haqda artıq müəyyən təsəvvür yaradır. Sözsüz ki, bizi daha çox Azərbaycan və onun maraqları, o sırada torpaqlarımızın taleyi düşündürür. Bu maraqlar isə, əlbəttə ki, Rusiya-ABŞ, Tramp-Putin münasibətlərinin necə formalaşacağından əhəmiyyətli dərəcədə asılı olacaq.**




# Ağ Evdən Kremlə kritik telefon - zəng Azərbaycan üçün də çalınır...

### ABŞ və Rusiya liderləri arasında ilk telefon danışığı - ilin ilk önəmli anonsu; Tramp Güney Qafqaza nə gətirəcək? Ekspertlərin Qarabağ məsələsi də daxil, 2017 gözləntiləri ilə bağlı maraqlı proqnozları var...

Rəsmi Bakı Azərbaycanın çıxarlarını ilk növbədə bu kontekstdə korrektə etməli olacaq. Ən azı o səbəbə ki, Qərb (ABŞ, NATO) indiyədək Rusiyanın bölgəmizdə geniş əl-qol açmasını əngəlləyən, Putinin bəzi təhlükəli Avrasiya planlarına mane olan əsas faktor olub. Cənubi Qafqazın Rusiyanın həyati maraqlar zonası kimi tanınması - hansı ki Trampın gəlişi ilə bəzi analitiklər bunu mümkün hesab etməyə başlayıblar - bu xüsusda Kremlin geosiyasi iştahını artıra, onun regionda hərbi-siyasi dayaqlarının daha da möhkəmlətməyə vadar edə bilər.

*****

Donald Trampın Ağ Evə sahiblənməsi ilə ABŞ-Avropa müttəfiqliyinin çat verə biləcəyi də narahatlıq doğurur. Ona görə ki, bu da Rusiyanın neo-imperiya maraqlarına işləyə, Krımın, Cənubi Osetiya və Abxaziyanın ilhaqını möhkəmlədə bilər. Hər halda ABŞ və Avropa Birliyi qlobal və regional məsələlərdə Rusiyaya qarşı həmişə vahid mövqedən, daha dəqiqi, vahid cəbhədən çıxış edib.

Belə yekdil mövqenin laxlaması, şübhəsiz ki, Moskvanın işinə yarayacaq. Hətta bu arada Trampın Rusiyaya qarşı sanksiyaları götürəcəyi barədə xəbərlər yayılıb. Doğrudur, az sonra ABŞ-ın yeni prezidenti bunun hələ tez olduğunu deyib, ancaq onun böyük siyasətdə "piyada", Putinin isə hiyləgər birisi və KQB mogikanı olması məsələni gündəmdən çıxarmır. Trampın Krımın ilhaqını tanıya biləcəyi ilə bağlı sözləri də bu yerdə yaddan çıxarılmamalıdır.

Amerika-Avropa münasibətlərinə gəlincə, artıq bu münasibətlərin Obama dövründəki kimi isti olmayacağını Almaniya kansleri Angela Merkelin narahatlığından görmək mümkündür. Öz növbəsində Böyük Britaniyanın baş naziri Tereza Mey ABŞ-ın yeni prezidentinə Vladimir Putinlə münasibətlərdə ehtiyatlı olmağı məsləhət görüb.

Fransa prezidenti Fransua Olland isə bir az da qabağa gedərək, Tramp administrasiyasını Avropa Birliyi üçün təhdid hesab etdiyini bildirib. Bu barədə o, Angela Merkellə keçirdiyi birgə mətbuat konfransında deyib: "Gəlin, açıq danışaq. ABŞ administrasiyasının qarşımıza qoyduğu çağırışlar var. Bu, ticarət qaydalarına, habelə dünyadakı münaqişələrin həlli ilə bağlı mövqeyimizə aiddir. Əlbəttə ki, Trampla dialoq aparmalıyıq, çünki onu amerikalılar seçiblər. Lakin bunu Avropa dəyərlərini nəzərə almaqla, maraqlarımız naminə etməliyik", - deyə Olland vurğulayıb. Merkel isə Trampın adını çəkməsə də, dünyadakı şərtlərin tez və dramatik istiqamətdə dəyişdiyini bildirib.

*****

Göründüyü kimi, Fransa lideri ABŞ-ın yeni liderinin dünyadakı münaqişələrin həlli ilə bağlı fərqli mövqe tuta biləcəyinə də işarə edib. Həmin münaqişələr arasında isə üçüncü on illikdir öz ədalətli həllini gözləyən Qarabağ münaqişəsi də var. Bəs, Donald Tramp administrasiyası Cənubi Qafqaza nə vəd edir, yeni hökumət regionumuzla bağlı daha çox hansı siyasəti izləyəcək?

Məsələ ondadır ki, bir tərəfdən milyarder-prezidentin təcrid proqramı ABŞ-ın xarici ölkələrə, o cümlədən postsovet məkanına marağının müəyyən ölçüdə azalmasını ehtiva edirsə, digər yandan, Amerika xarici siyasət kursunun radikal şəkildə dəyişəcəyini gözləmək də real görünmür. Çünki ABŞ-ın xarici siyasətini təkcə prezident müəyyən eləmir.

*****

Rusiyalı ekspertlərin bu yöndə "Vestnik Kavkaza" saytına söylədikləri təxminlər birmənalı olmasa da, maraqlıdır. Məsələn, Rusiya EA yanında Beynəlxalq Təhlükəsizlik Mərkəzinin rəhbəri Aleksey Arbatov ABŞ-ın Cənubi Qafqazda fəallığının azalacağını ehtimal edir: "Fikrimcə, indiki administrasiya bölgə haqda az məlumatlıdır və burada baş verən hadisələrə tamamilə laqeyddir. Bundan dolayı Vaşinqton istənilən aktivlikdən, xüsusilə də sülhməramlı fəallıqdan uzaq duracaq. Əgər Krım-Ukrayna məsələsi hər halda Ağ Evdən ötrü prinsipiallığını saxlayacaqsa, Cənubi Qafqaz məsələsi uzaq bir yeşiyə qoyulacaq. Hətta bu bölgədə müharibə başlasa, bu, Trampın deyil, Avropanın başağrısı olacaq", - deyə ekspert qeyd edib.

Moskvadakı Siyasi İnformasiyalar Mərkəzinin direktoru Aleksey Muxin isə, əksinə, əmindir ki, Trampın dönəmində ABŞ-ın xarici siyasəti daha sərt və məqsədyönlü olacaq: "Tamamilə aydındır ki, Birləşmiş Ştatlar Güney Qafqazda daha fəal rol oynayacaq. Ənənəvi olaraq, anqlo-sakson dünyası Cənubi Qafqazdan Rusiyaya təsir eləmək üçün istifadə edir. Yaxın gələcəkdə Vaşinqton bu kursu davam etdirəcək", - politoloq əminliklə vurğulayıb.

Onun sözlərinə görə, bu üzdən bölgədə konfliktlərin eskalasiyası, qanunsuz birləşmələrin fəaliyyətinin güclənməsi və Qərb QHT-lərinin fəallaşması gözlənilir. "Qərb regionda Rusiya üçün yeni hədələr və təhdidlər yaratmaqla Rusiya rəhbərliyinin başqa məsələlərdə mövqeyinin yumşalmasına cəhd edəcək", - politoloq əlavə edib.

Öz növbəsində Beynəlxalq Məsələlər üzrə Rusiya Şurasının proqram direktoru İvan Timofeyev düşünür ki, ABŞ Cənubi Qafqazda öz aktivliyini Rusiya ilə koordinasiya eləmək zərurəti ilə üzləşəcək: "Cənubi Qafqaz üçün Donald Trampın hakimiyyətə gəlişindən dolayı bir neçə mühüm məqam var. Birincisi, Tramp Gürcüstanın NATO-ya doğru hərəkətini sürətləndirə də bilər, bu məsələyə böyük önəm verməyə də. Aydındır ki, bu prosesin sürətlənməsindən Moskva yüz faiz məmnun olmayacaq".

Dağlıq Qarabağ probleminə gəlincə, analitik Rusiyanın fəaliyyətinin koordinasiya olunması məsələsinin ortaya çıxacağını təxmin edir: "Əgər ilk mərhələlərdə Rusiya və ABŞ vasitəçilər kimi birgə hərəkət edirdilərsə, daha sonra Qarabağ üzrə uzlaşma bir qədər pozuldu. İndi isə koordinasiyanı bərpa etmək lazımdır. Rusiya-Amerika koordinasiyasına həmçinin radikal qruplaşmaların Cənubi Qafqaza nüfuz etməsinə qarşı mübarizədə ciddi şəkildə ehtiyac var. Axı, bu təhlükələri qiymətləndirməmək olmaz. Radikallara qarşı ölkələrin ümumi ortaq əməkdaşlığı gərəkdir". Söhbət, təbii ki, ilk növbədə terror qruplaşmalarından gedir.

*****

Ötən həftənin son siyasi akkordu isə gözlənildiyi kimi, prezident qismində Trampla onun rusiyalı həmkarı Putin arasında baş tutan ilk telefon danışığı oldu. İnformasiyaya görə, telefon zəngini Tramp edib və söhbət 50 dəqiqə çəkib (Buna kimi o, Yaponiya baş naziri və Almaniya kanslerinə telefon açıb).

Bu telefon danışığı ilə bağlı Kremldən yayılan açıqlamanın məzmunu maraqlıdır: "Rusiya prezidenti Vladimir Putin və onun amerikalı həmkarı Donald Tramp arasında telefon danışığı məhsuldar və müsbət olub. İki ölkə lideri terrorla mübarizə, Suriya münaqişəsi və Ukraynadakı vəziyyəti müzakirə ediblər. Bu və digər məsələlər üzrə tərəfdaş əməkdaşlığının yaradılması razılaşdırılıb. İki ölkənin liderləri prioritet məsələ kimi beynəlxalq terrorçuluqla mübarizənin zəruriliyini qeyd ediblər və Rusiya və Amerika hərbçilərinin İŞİD-in və Suriyada fəaliyyət göstərən digər terrorçu qruplaşmaların darmadağın edilməsi məqsədilə koordunasiyalarının yaradılması barədə razılığa gəliblər". APA-nın xəbərinə görə, bu barədə Kremlin mətbuat xidmətinin yaydığı məlumatda bildirilir.

"Prezidentlər həmçinin ərəb-İsrail münaqişəsi, strateji sabitlik sahəsi və nüvə silahının yayılmaması, habelə İranın nüvə proqramı və Koreya yarımadası ətrafındakı məsələləri müzakirə ediblər. Dövlət başçıları mütəmadi olaraq şəxsi əlaqə saxlamağa dair də razılığa gəliblər. V.Putin və D.Tramp habelə iki ölkənin işgüzar dairələri arasında ticari-iqtisadi əlaqələrin bərpa olunmasının vacibliyini qeyd ediblər. Tərəflər telefon danışığı zamanı konstruktiv, bərabər hüquqlu və qarşılıqlı faydalı şərtlər əsasında əməkdaşlığın bərpası və inkişaf etdirilməsi istiqamətində birgə fəal iş aparmaq niyyətində olduqlarını bildiriblər". Diqqətçəkicidir ki, telefon danışığı zamanı Kreml başçısı ABŞ-ı "mühüm tərəfdaş" adlandırıb.

*****

Bu yerdə qeyd etmək zərurəti var ki, Tramp ABŞ başda olmaqla "altılıq" ölkələrinin İranla əldə etdiyi məlum nüvə anlaşmasını təftiş və ləğv etmək niyyətindədir - hərçənd Konqresdə bu xəttin tərəfdarları azlıq təşkil edir. Rəsmi Tehran isə məsələyə artıq sərt reaksiya verib və hətta ABŞ-ı hədələyib. Trampın İran planları Rusiyanın da maraqlarına toxunur. Ən azı ona görə ki, Moskva Tehranın nüvə proqramına qayıdışını istəmir.

Trampın İrana neqativ münasibətini verdiyi ilk fərmanlardan birindən də aydın görmək olar. Həmin fərmana əsasən, İran, İraq, Suriya, Sudan, Yəmən, Liviya və Somali vətəndaşlarının ölkəyə girişi 90 gün müddətinə dayandırılıb. Bu və digər səbəbdən Tramp dönəmində İran-Amerika münasibətlərinin təzədən gərginləşəcəyi istisna edilmir. Bu isə Azərbaycan üçün də köhnə və həssas situasiyaya qayıdış anlamına gələ, onun regiondakı önəmini ABŞ üçün yenidən artıra bilər.

Bütün hallarda iki dövlət başçısı arasında bu təmas iki dövlət arasında münasibətlərin post-Obama dövründə hansı məcrada inkişaf tapacağının konturlarını dəqiqləşdirmək baxımından xüsusi önəm daşıyırdı. Demək, Azərbaycanın yerləşdiyi Güney Qafqaz bölgəsi ətrafında situasiyanın hansı məcrada dəyişəcəyi də əhəmiyyətli ölçüdə bu telefon danışığının elan olunan və olunmayan detallarından, əldə olunan ilkin anlaşmalardan asılı ola bilər.

Eləcə də iki superdövlətin maraqlarının toqquşduğu digər regionlarda ab-havanı hansı paytaxtın diktə edəcəyini 50 dəqiqəlik söhbətin məzmununda axtarmaq dəyər. Bu mənada ABŞ və Rusiya liderləri arasında ilk telefon danışığını dünya üçün ilin ilk ən mühüm və qiymətli anonsu da saymaq mümkündür.

❑ **Analitik xidmət**

YENİ MÜSAVAT
N 20 (6634) 30 yanvar 2017



# Rusiyada Lapşin isterikası

## “Bu nədir, bunlar çəkmələrini üstümüzə silirlər...”

**Rusiya və İsrail vətəndaşlığı daşıyan qalmaqallı bloqqer Aleksandr Lapşinin Minskdə saxlanılması, daha sonra Bakıya ekstradisiya olunması barədə qərar verilməsi qonşu ölkədə çox əsəbi reaksiyalara səbəb olur. Virtualaz.org xəbər verir ki, Rusiya dairələrində bu məsələyə görə daha çox Belarusa qəzəblidirlər.**

Bu məsələ “Exo Moskva” radiostansiyasının şərhçisi Yuliya Latıninanın “Kod dostupa” müəllif proqramında da qaldırılıb. Şərhçi bildirir: “Axı bloqqer Lapşinlə bağlı nə baş verib? O, Azərbaycandan soruşmadan Qarabağa gedib. Üstəlik, sosial şəbəkələrdə buna görə lovğalanıb və ələ salıb. Azərbaycanlılar onu beynəlxalq axtarışa veriblər, Minskdə həbs ediblər və indi Bakıya ekstradisiya etməyə hazırlaşırlar. Uşaqlar, bu, divanəlikdir. Bizim saxladığımız avtoritar dövlət (Belarus nəzərdə tutulur-red.) tozunu üstümüzə silir, ona görə ki... Bağışlayın, tanınmamış respublikaya Bakının icazəsi olmadan gedən adamı beynəlxalq axtarışa vermək nə deməkdir? Bu, presedentdir. Bu o deməkdir ki, Ukraynadan soruşmadan Krıma gedən hər bir rusiyalı beynəlxalq axtarışa verilə və Ukraynaya tutulub göndərilə, orada 8 il həbs ala bilər. Nəyə görə biz Lapşini istəmirik?

Və ümumiyyətlə, əgər amerikalılar hansısa rusiyalı xakeri həbs etsə biz sadəcə olaraq bütün dünyanı silkələyərik. Belarus isə rusiyalı bloggeri həbs edib, hansı ki, günahı ancaq Dağlıq Qarabağa getməkdən ibarətdir. Təsəvvür edin ki, həmin bloggeri amerikalılar həbs etsə nə baş verərdi, məsələn, Obamanın vaxtında (İndi yəqin ki, biz buna görə yenə susardıq). Bizim XİN buna görə onların beynini deşərdi. İndi isə heç veclərinə deyil, tam sükutdur. Dünya isə bunu görür, diplomatik korpus görür. Onlar görürlər ki, o qədər də böyük olmayan Belarus bu məsələdə çəkmələrini Rusiyanın üstünə silir. Mən bir daha təkrar edirəm, əslində bu, Rusiyanın imicinə zərbədir. A) dəhşətli zərbədir. B) tamamilə dəhşətli zərbədir, mən artıq dedim, presedentdir, çünki bunun əsasında indi Ukrayna Krıma gedən istənilən adamı beynəlxalq axtarışa verə bilər. Və bu zaman biz necə görsənəcəyik, o maraqlıdır. Qeyd etməliyik ki, Lapşin həm də İsrail vətəndaşıdır. Bax həmin İsrail, hansı ki, Lapşindən vacib qayğıları var, bloqqerə görə yer cırmaqlayır..."

Karnegi Moskva Mərkəzinin bu mövzudakı məqaləsində isə Lapşinin məsələsi Belarusun Rusiyaya qarşı demarşı kimi qiymətləndirilir. Məqalədə deyilir ki, Azərbaycanla Belarus arasında xüsusi münasibətlər var. Bundan əvvəl prezident İlham Əliyev Belarusa neftlə və pulla kömək edib. Minsk vaxtaşırı olaraq Moskva ilə mübahisəyə girir, Rusiya onu sıxmağa başlayanda alternativ enerji mənbələri axtarır. Azərbaycan isə Belarus üçün alternativ enerji mənbəyidir. “İki liderin nəinki yaxşı münasibətləri var, eləcədə postsovet məkanında prinsipial olaraq bərabər və münaqişəsiz şəxsi münasibətləri formalaşıb. Belarus KTMT-nin üzvü olsa da Minskin Qarabağ məsələsindəki mövqeyi yumşaq desək azərbaycanyönümlüdrür” - məqalədə deyilir.

“Yəqin ki, Lapşini o vədlə Azərbaycana verəcəklər ki, onu orada həbsxanaya salmasınlar, vətəndaşı olduğu ölkələrdən birinə təhvil versinlər. İsrail artıq Lapşinin prezident Əliyevdən üzr istəməsi barədə məktub təşkil edib, habelə onun anasının əfv barədə xahişini göndəriblər. Rusiya xarici işlər naziri Sergey Lavrovun bəyanatına baxmayaraq Minskin Lapşinin ekstradisiyası barədə çıxardığı qərarın təsadüfi olub-olmadığı məlum deyil, ancaq bu, Belarus-Rusiya münasibətlərində böhran yaranmadan baş verə bilməzdi” - məqalədə deyilir.

Ermənistanda da bu məsələ təlaş doğurub. Heç bir şübhə yoxdur ki, Lapşinin tutulması və ekstradisiyası, hətta onu sonradan Azərbaycanda əfv edib vətəndaşı olduğu ölkələrdən birinə, məsələn, İsrailə versələr belə, erməni üçün ciddi zərbə olacaq. Çünki dünya erməniləri Qarabağı turizmin hesabına inkişaf etdirməyə böyük ümid bəsləyirlər. Lakin Lapşinin başına gələnlər işğal altındakı ərazilərə səfər edən başqa xarici ölkə vətəndaşları üçün presedent olmaqla yanaşı, bu ərazilərə turist kimi gəlmək istəyənlər üçün də çəkindirici hadisə olacaq. Bu baxımdan Ermənistandakı isterik reaksiyaları başa düşmək olar. Ancaq göründüyü kimi, Rusiyada da bundan az narahat deyillər və əsas qəzəbi Belarusun üzərinə yönəldirlər.

# “Övladımın toyunda 30 min borc almışam, amma...”

## Zərərçəkmişlərdən MTN mafiyası ilə bağlı ilginc ifadələr

**“MTN mafiyası”nın qanunsuz əməlləri saymaqla bitmir. İş adamlarının telefon danışıqlarını dinləyən, əksər şəxsləri ermənilərlə işbirliyində günahlandıraraq, onlardan hədə-qorxu yolu ilə külli miqdarda pul alan maskalılardan biri də ləğv edilmiş MTN-in Transmilli Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinin I idarəsinin, III şöbəsinin rəisi olmuş Fuad Sədrəddinov olub.**

Onun “qurban”ı isə sahibkar Elçin Əliyev olub. “EGT Express” MMC-nin təsisçisi olan E.Əliyev 2014-cü ildə “MTN çetesi”nin caynağına keçib. Musavat.com xəbər verir ki, zərərçəkmiş E.Əliyev istintaqa ifadəsində MTN-nin onun başına açdığı oyunlardan danışıb.

O deyib ki, 2014-cü ilin mayında təsisçisi olduğu MMC-nin ofisinə 6-7 nəfər mülki geyimli şəxs gəlib. Onlar özlərini MTN əməkdaşı kimi təqdim edərək ofisdə axtarış aparacaqlarını deyiblər. Əməliyyata rəhbərliyi isə Fuad Sədrəddinov edib. E.Əliyev yoxlamanın səbəbini soruşduqda ona “Rəis özü indi sizi başa salacaq. Siz ermənilərlə əlaqədəsiniz” deyiblər.

Fuad Sədrəddinov MMC rəhbərinə “Sən Çexiyada yaşayan Lelit Qriqoryan adlı erməni ilə əlaqədəsən, sənin ofisindən onun ofisinə zəng olunub, onunla telefon danışığı aparılıb. Buna görə də səni MTN-ə aparacağıq” deyib.

Lelit Qriqoryan adlı erməni ilə əlaqəsinin olmadığını desə də, E.Əliyevi dinləyən olmayıb. Bundan sonra onu MTN-ə aparacaqları ilə hədələyiblər: “Təsisçisi olduğum firmanın Azərbaycanda qeydiyyatdan keçmiş müstəqil firma olduğunu dedim. Sonra Fuad Sədrəddinov mənimlə təklikdə söhbət etməyə başladı. Məni həbs etməklə hədələdi. MTN-ə aparılacağım halda mənim üçün yaxşı olmayacağını bildirdi. Bu hədələrdən qorxdum. F.Sədrəddinov açıq



şəkildə məndən 100 min tələb etdi. Bu qədər pulumun olmadığını dedim”.

E.Əliyev bu qədər pulunun olmadığını deyib, məbləğin aşağı salınmasını istəyib. Amma bilmədiyi bir məsələ var idi. MTN maskalıları artıq onun telefon danışıqlarını izləmiş və bir neçə gün əvvəl maşınını 118 min dollara satdığını öyrənmişdilər. Yəni, MTN maskalıları “qurban”larında nağd pulun olduğunu bilib gəlmişdilər və pulun elə həmin gün onlara çatdırılmasını tələb ediblər: “F.Sədrəddinov dedi ki, ”Telefon danışıqlarına qulaq asmışıq. “Mercedes GL” markalı maşınını bir neçə gün əvvəl 118 min dollara satmısan". Həqiqətən də belə idi. Elə həmin gün 100 min manatı çatdırmağımı istədilər. Mingəçevirdə evdə olan 120 min dolları taksi ilə göndərdilər. Ancaq F.Sədrəddinov dedi ki, 100 min manat verməlisən. Bunun üçün yeznəmdən 6 min manat götürdüm, cibimdə olan 1500 manatı da üstünə qoyaraq F.Sədrəddinova verdim".

120 min dolları E.Əliyevdən alan MTN zabiti F.Sədrəddinov ona deyib ki, digər MTN əməkdaşları soruşsa, 100 min dollar verdiyini desin: “Mən başa düşdüm ki, F.Sədrəddinov 20 mini də özünə alıb”.

F.Sədrəddinov bundan sonra da E.Əliyevdən əl çəkməyib. Bir neçə dəfə onu hədələyərək əlavə məbləğdə pullar alıb: “Ofisdəki telefon nömrələri olan kitabçanı və noutbuku da aparmışdılar. 10 gün sonra Fuad Sədrəddinov zəng elədi və məni ”Retro" restoranına çağırdı. Qeydiyyat kitabçamdakı tanışlarım barədə sorğu-sual etdi. Ona pul verdiyimi, başqa şəxsləri incitməməsini dedim. Bunun üçün də məndən 10 min manat istədi. 10-15 gün sonra 10 min manata bərabər 12700 dolları ona verdim. Yeni il qabağı F.Sədrəddinov yenə zəng elədi. Bayram qabağı kimlərəsə haqq-hesab çatdırmaq lazım olduğunu dedi. Məni “Meşəbəyi” restoranına çağırdı. Orada ona 1500 avro verdim. Bundan başqa 2015-ci ildə “Meşəbəyi” restoranında 3.000 manat vermişəm".

Bu epizod üzrə MTN zabiti Sədrəddinov Fuad Sabir oğlu da şahid qismində ifadə verib. O, zərərçəkmiş Elçin Əliyevlə tanışlığını inkar etməyib: “Elçin Əliyevin təsisçisi olduğu ”EGT EXPRESS" şirkətindən Praqadakı ofisə erməni Lilit Qriqoryanın istifadəsində olan nömrəyə zəng edilmişdi. İdarədə açılmış “Siqnal işi” çərçivəsində əməliyyat tədbirləri keçirildi. Bundan sonra Elçin Əliyevlə münasibətlər yarandı. Elçinlə müxtəlif vaxtlarda, müxtəlif yerlərdə görüşlərimiz oldu".

MTN zabiti ifadəsində MMC rəhbərinin erməni ilə telefon danışıqları barədə apardıqları araşdırmanın nəticəsi haqda danışmayıb. Həqiqətən belə bir araşdırma aparıb-aparmadıqlarını söyləməyib. Fuad Sədrəddinov ondan şikayətçi olan Elçin Əliyevdən pul adlığının ifadəsində təsdiq edib. Ancaq MTN zabiti həmin pulu borc olaraq aldığını deyib: “Bir yerdə oturub yemək yemişik. Düşmənçilik və ya ədavətimiz olmayıb. Elçin Əliyev logistika sahəsində mütəxəssis olduğu üçün yük daşımaları ilə bağlı müxtəlif terminlərin izahında çox köməklik edib. 2015-ci ildə övladımın toy mərasimi ilə əlaqədar Elçindən 30 min dollar pul aldım. Lakin müəyyən çətinliklər olduğu üçün borcu qaytara bilmədim. Düşünürəm ki, Elçin Əliyev buna görə belə ifadə verir”.

❑ **İlkin MURADOV**

# Evini almaq istədi, pulunu də əlindən aldılar

**“Sovet dövründə qardaşım Hüseyn Məmmədovun adına Bakıda ev almışdıq. Sonradan qardaşım evi bizə qaytarmaqdan imtina etdi. Məhkəməyə müraciət etdik, vəklil pulumuzu aldı. İndi də evimi də, pulumu da geri ala bilmirəm”. Bakı sakini Həqiqət Quliyeva redaksiyamıza ünvanladığı məktubda belə yazır.**



O qeyd edir ki, vəkil Ramil Məmmədzadə ilə Bakıda tanış olublar: “Mülki işlə bağlı 2013-cü ildə vəkil Ramil Məmmədzadə ilə müqavilə bağladıq. Vəkil məni əmin elədi ki, evinizi məhkəmə yolu ilə alıb sizə qaytaracaq. Bizi müdafiə edəcəyi üçün 2 min manat pul aldı. Bundan əlavə, bizi əmin etdi ki, həmin mənzilə qanuni sənəd alacaq. Dedi ki, Nəsimi Rayon Məhkəməsinin hakimi Şahin Mirzəyev xeyrinizə qərar çıxaracaq. Məndən Daşınmaz Əmlakın Reystiri İdarəsi üçün 2 min 500 dollar, Nəsimi rayon məhkəməsinin hakimi Şahin Mirzəyevin adına isə 4 min dollar pul aldı. Nəsimi məhkəməsi xeyrimizə qərar çıxardı. Məhkəmədən sonra vəkil əlavə 1500 manat da aldı. İş Bakı Apelyasiya Məhkəməsinə getdi. Hakim Mədinə Bağırova sənədlərin saxta olduğunu əsas gətirərək Nəsimi Rayon Məhkəməsinin qərarını ləğv elədi. Vəkil əvvəl dedi pulunuzu qaytaracağam. Sonra dedi vermirəm, gedin kimə istəyirsiniz şikayət edin. Mən Baş Prokurorluğa, Daxili İşlər Nazirliyinə, Nəsimi Rayon Prokurorluğuna şikayət elədim. Amma heç kim şikayətimə baxmır. Şikayətimizi Vəkillər Kollegiyasına göndərirlər”.

H.Quliyeva yazır ki, Vəkillər Kollegiyasında nizam intizam komissiyasının sədri Arif Rəsulzadənin qəbulunda olub: “Arif Rəsulzadə dedi ki, Ramil Məmmədzadəni çağırıb tapşıracağam, pulunuzu qaytaracaq. Sonradan Arif Rəsulzadə məni qəbul etməkdən yayındı. İndi bilmirəm nə edim, dərdimi kimə deyim. Baş prokuror Zakir Qaralovdan xahiş edirəm ki, vəkil Ramil Məmmədzadədən pulumun alınmasına köməklik etsin”.

❑ **E.HÜSEYNOV**

YENİ MÜSAVAT
N 20 (6634) 30 yanvar 2017

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# İlin boşuna gedən ilk ayı - danışıqların "donu" nə vaxt açılacaq?

Azərbaycanı hədələməkdən çəkinməyən düşmən bu ay rekord sayda əsgərini itirdi; **hərbi ekspert:** "Azərbaycan yüksək dəqiqliyə və dağıdıcı qüvvəyə malik ən müasir silahlara malikdir"; ABŞ-ın Qarabağa dair yeni hərəkət planı açıqlandı...



**2017-ci ilin ilk ayı başa çatır. Təəssüf ki, bu ay da Qarabağ danışıqlarının "donu" açılmamış qaldı. Əvəzində nə qədər paradoksal olsa da, işğalçı Ermənistanın rəsmilərinin dilindən hərbi ritorikaya qayıdışın şahidi olduq - o Ermənistan ki, ötən ilin aprelində onun işğalçı ordusu Azərbaycan ordusundan sanballı zərbə alıb.**

Hərçənd radikal ritorika Ermənistanda parlament seçkiləri kampaniyası ilə də bağlıdır. Digər səbəb qismində vasitəçilərin ikisinin rotasiyasını göstərmək olar. Səbəblərin önündə isə Rusiya amili gəlir - işğalçıya hər cür hərbi-siyasi, mənəvi dəstək verən Rusiya.

***

Ancaq məlumdur ki, aprel zərbəsi nəticəsində düşmən ölkədə silahlı qüvvələrinin rəhbərliyi dəyişilib, neçə-neçə general qeyri-peşəkar fəaliyyətə, korrupsiya və başqa əməllərə görə həbsə salınıb. Təsadüfi deyil ki, təzə müdafiə naziri Viqen Sərkisyan hələ də ordudakı korrupsiyadan danışır. Ötən həftəsonu verdiyi açıqlamada o, silahlı qüvvələrdə korrupsiya halları ilə daha qətiyyətli mübarizə aparılacağını bəyan edib.

Erməni ordusunda isə təkcə korrupsiya problemi aktual deyil. Burada "dedovşina" da dərin kök salıb. Yeri gəlmişkən, hələ tam başa çatmamış yanvar ayında işğalçı ordu rekord sayda - 11 hərbçi itirib. Onların mütləq əksəriyyəti Azərbaycan gülləsinə tuş gələnlərdir. Azərbaycan isə 1 itki verib. Demək, döyüş hazırlığı, hərbi texniki təchizat məsələsində də üstünlük bizim tərəfimizdədir.

***

Bütün bunların, o sırada müdafiə naziri Sərkisyanın ordudakı korrupsiyadan ucadan danışması fonunda Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisi Movses Akopyanın durub Azərbaycanı hədələməsi gülünc görünür. Yaxşı olardı ki, Akopyan öncə yanvardakı canlı itkilərin səbəblərini araşdıraydı, nəinki Azərbaycanı hədələyəydi.

Təbii ki, Akopyana cavablar özünü ləngitməyib. Azərbaycan Müdafiə Nazirliyinin yaydığı açıqlamada ordumuzun erməni işğalçı ordusunu məhv etməyə qadir potensiala malik olduğu xüsusi vurğulanır.

Hərbi ekspertlər də bunu real hesab edirlər. "Bu gün düşmənin hər bir hərəkətinə ordumuz tərəfindən nəzarət edilir. Düşmənin bütün strateji obyektləri ordumuzun nəzarəti altındadır. Lazımi an onların hamısı məhv ediləcək". Bunu hərbi ekspert, ehtiyatda olan polkovnik-leytenant Mirşamil Hadıyev mediaya açıqlamasında deyib (Report).




O qeyd edib ki, hazırda Azərbaycan Silahlı Qüvvələri yüksək dəqiqliyə və çox böyük məhvetmə gücünə malik müasir silahlar, döyüş helikopterləri və təyyarələri, ən müasir hava hücumundan müdafiə vasitələri, zirehli texnika, tanklar və artilleriya qurğuları ilə təchiz edilib: "Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisi Movses Akopyan düzgün vurğulayır ki, regionda hərbi siyasi balans dəyişkəndir və hərbi, siyasi, iqtisadi və informasiya faktorlarından asılıdır. Bununla da o bir daha təsdiq edir ki, sadaladığı hər bir faktorlara görə Azərbaycan Ermənistanı üstələyib".

Ekspert Azərbaycan ordusunun arsenalında yüksək dəqiqliyə və dağıdıcı qüvvəyə malik ən müasir silahların olduğunu xatırladıb. "Azərbaycan Rusiyadan, Türkiyədən, İsraildən, Pakistandan və digər ölkələrdən düşmənin hərbi obyektlərini vurmaq imkanına malik müxtəlif növ raketlərin tədarükünü həyata keçirib", - deyə o qeyd edib və onu da vurğulayıb ki, bundan başqa artıq Belarus tərəfi də Azərbaycana 250 km mənzilli "Polonez" raket kompleksinin satılmasına dair razılıq əldə olunduğunu açıqlayıb.

"Ali Baş Komandan İlham Əliyevin bildirdiyi kimi bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır, həm döyüş qabiliyyəti, həm təminat-təchizat baxımından. Bizim yüksək dəqiqliyə, dağıdıcı qüvvəyə malik olan ən müasir silahlarımız var. Onların bir hissəsi nümayiş etdirilib, bir hissəsi isə nümayiş etdirilməyib. Lazım olan vaxtda, lazım olan yerdə onlar nümayiş etdiriləcək" - hərbi ekspert sözlərinə əlavə edib.

***

Aprel döyüşləri də göstərdi ki, Azərbaycan ordusu həqiqətən işğal altındakı ərazilərimizi istənilən an azad etməyə hazırdır. Yetər ki, bundan ötrü əlverişli siyasi şərtlər olsun. Söhbət ilk növbədə işğalçı Ermənistanın əsas müttəfiqi və havadarı Rusiyanın neytrallığını təmin etməkdən gedir.

Hələ ki rəsmi Bakı problemin dinc diplomatik yollarla həll potensialının bitmədiyinə inanır. O üzdən ciddi nəticə olmasa belə, təmkinlə danışıqlar prosesində qalır. Ancaq bu, sonsuza kimi davam edə, işğal rejimi daha neçə il uzana bilməz. Məsələnin dinc nizamlanması isə indi həm də Minsk Qrupunun iki mühüm həmsədrlərindən biri kimi ABŞ-dan asılıdır.

Məlumdur ki, hazırda yeni prezident Donald Tramp öz komandasını formalaşdırmaqla məşğuldur. Komandanın əsas fiqurlarından biri isə dövlət katibi (xarici işlər naziri) postunu tutacaq şəxsdir. Dağlıq Qarabağ məsələsi də dövlət katibinin kurasiyasına aiddir. Bəllidir ki, bu posta əsas namizəd Reks Tillersondur. Ötən həftəsonu o, Senatdakı dinləmələr zamanı Qarabağ konflikti ilə bağlı suala da aydınlıq gətirib.

"Regionda stabilliyin və inkişafın təmin olunması üçün Azərbaycan və Ermənistan hökumətləri ilə işləməyə hazıram", - deyə Tillerson bildirib. Onun sözlərinə görə, regionda sülhün bərqərar olunması üçün tərəflər arasında əldə olunan razılaşmaların şərtlərinin yerinə yetirilməsi zəruridir.

Ermənistan-ABŞ əlaqələrinin inkişafının tərəfdarı kimi tanınan senator Edvard Markeyin "rəsmi İrəvanın blokada şəraitindən çıxarılması istiqamətində hansı addımları atmaq niyyətindəsiniz" sualına cavab olaraq R.Tillerson deyib ki, Ermənistan-Türkiyə diplomatik əlaqələrini normallaşdırmağa çalışacaq.

***

Göründüyü kimi, ABŞ-ın yeni dövlət katibi olmağa real namizəd olan Tillerson faktiki, Qarabağa dair hərəkət planını açıqlayıb. Bu plan həm də Türkiyə-Ermənistan əlaqələrinin normallaşmasına hesablanıb. Belə bir plan həyata keçəcəkmi və keçəcəksə, Rusiya amili nə dərəcədə ciddiyə alınacaq? Sualın cavabı yəqin ki, ilk növbədə Amerika xarici siyasət idarəsi başçısının Qarabağ münaqişəsinin həllini nə dərəcədə öz şəxsi nəzarətinə götürəcəyindən və məsələdə nə dərəcədə beynəlxalq hüquq normalarına söykənəcəyindən asılı olacaq.



## Rusiya Ermənistanı Qafqazda əsas müttəfiqi kimi görür

**Rusiya müdafiə nazirinin birinci müavini Ruslan Tsalikov Ermənistanın müdafiə naziri Vigen Sarkisyanla görüşdə Rusiyanın Ermənistanı Qafqazda əsas müttəfiqi kimi gördüyünü bildirib.**

"Bu müddət ərzində respublikada regiondakı hərbi təhlükəsizliyə mövcud təhdidlərə effektiv müqavimət göstərməyə və Ermənistanın müdafiəsini və müdafiə qabiliyyətini yüksək səviyyədə təmin etməyə qadir silahlı qüvvələr yaradılıb. Ermənistanı Qafqazda müttəfiqimiz və əsas tərəfdaşımız kimi görürük", - deyə Tsalikov qeyd edib.

YENİ MÜSAVAT
N 20 (6634) 30 yanvar 2017

# “Təbabət o qədər inkişaf edib ki, indi ürək xəstəliyindən ölmək gülüncdür”

## Tanınmış kardioloq **İdris Xəlilov:** “Yaş faktoru, genetik faktor, gender fərqi bizdən asılı olmayan risk faktorlarıdır”

### “30 yaşdan sonra ildə bir dəfə, 40 yaşdan sonra ildə iki dəfə, 50 yaşdan sonra üç dəfə müayinə olunmaq doğru olardı”



**Müsahibimiz tanınmış kardioloq İdris Xəlilovdur. Əvvəlcə müsahibimiz haqqında qısa arayış: İdris Xəlilov 16 avqust 1955-ci ildə Masallı rayonunun Bədələn kəndində anadan olub. 1979-su ildə ATU-nu, 1986-cı ildə SSRİ TEA-nın Ümumittifaq Kardioloji Elmi Mərkəzinin (Moskva) ordinaturasını, 1991-ci ildə aspiranturasını bitirib tibb elmləri namizədi, 1992-ci ildə Tehran Universitetinin doktorluğunu alıb.**

1992-1996-cı illərdə İranda, 1996-cı ildə Dubayda işləyib. 1993-cü ildə İranın Marağa şəhərində (İbn Sina Hospitalı) infarktlı xəstələr üçün açılan intensiv terapiya şöbəsinə (CCU) rəhbərlik edib. 1997-ci ildən Bakıda işləyir. İngilis, rus və fars dillərini sərbəst bilir. Ümumilikdə 4 ölkədə - Rusiya, Azərbaycan, İran və Birləşmiş Ərəb Əmirliklərində 38 il kardioloq kimi fəaliyyət göstərib. 2011-ci ildə Odlar Yurdu Universitetinin professoru seçilib. 2005-ci il 22 saylı Nəsimi 2-ci seçki dairəsi və 2010-cu il 10 saylı Binəqədi 3-cü seçki dairəsi üzrə parlament seçkilərində deputatlığa namizəd olub.

***- İdris həkim, hazırda ürək xəstəlikləri ən çox hansı yaş kateqoriyasına aiddir və buna səbəb olan faktorlar nələrdir?***

- Ürək xəstəlikləri etnik və milli bir xüsusiyyətə malik deyil. Bütün ölkələrdə olduğu kimi, bizim ölkədə də bu xəstəliyin yayılma faizi var. Bizim ən çox rast gəldiyimiz xəstəlik yüksək qan təzyiqidir. Yaşlı əhali arasında hər üç nəfərdən birində biz yüksək qan təzyiqi aşkarlayırıq.

***- Ürək xəstəliklərinin artan statistikasının səbəbi nədir?***

- Səbəb odur ki, 20-30 il öncə Azərbaycanda indiki həkim kollektivi və indiki müasir diaqnostik üsullar yox idi. Əhalimizin tibbi savadı bu dərəcədə deyildi. İnsanlar indi həkimə daha çox müraciət edir, diaqnostika aparılır və xəstəliklər aşkarlanır. Daha çox ürəyin işi ilə bağlı xəstəliklərə rast gəlinir. Bu, çox ciddi xəstəlikdir və həyat üçün təhlükəlidir. Bundan başqa, digər problemlər də var, uşaqlarda aşkarlanan anadangəlmə ürək qüsurları və sairlər var.

***- Ürək xəstəlikləri nədən yaranır?***

- Bu, təbii bir prosesdir, qocalmaq, xəstələnmək, ölmək... Bu, hər zaman olub və olacaq. Əgər soruşsanız ki, biz nə edək ki, xəstələnməyək - mən deyə bilərəm ki, biz onun qarşısında acizik. Xəstəlik obyektiv haldır. Burada söhbət vaxtsız qocalığın, vaxtsız ölümün qarşısını almaqdan, onun diaqnostikasını aparmaqdan və xəstəyə kömək etməkdən gedir. Ona görə də əslində bütün xəstəliklər var və olacaq. Burada insanların özündən asılı olan faktorlar da var, asılı olmayan faktorlar da. Biz yaşla, genetika ilə mübarizə apara bilməyəcəyik. Ancaq biz siqaret çəkməklə, araq içməklə mübarizə apara bilərik. Biz sağlam həyat tərzi keçirə, çox yeməyə bilərik. Burada bizdən asılı olan və olmayan risk faktorları var. Yaş faktoru, genetik faktor, gender ayrılığı bizdən asılı olmayan risk faktorlarıdır. Bizdən asılı olanlar isə az hərəkətlilik, yüksək qan təzyiqi, stress, qida qəbulunda anormal hallar, çox və vaxtsız yemək, alkoqol təsiridir. Əgər biz bunlarla mübarizə aparsaq, həyat gözəlləşəcək və uzanacaq.

***- Ürəyin orta yaş həddi neçədir? Normal həyat tərzi keçirən insanın ürəyi neçə yaşa kimi sağlam qala bilər?***

- Quranda belə bir ayə var ki, “Siz harada olsanız da, uca və möhkəm dağlar arasında ölüm sizi haqlayacaq”. Biz sağlam həyat tərzi keçirsək, təbii ki, orqanlarımızın da ömrü uzanacaq. İnsan orqanizmi çox yaşamağa hesablanıb. 40-60 yaş orta yaş sayılır. Bütün dünyada artıq insanlar daha çox yaşayırlar. Çox yaşamaq üçün risk faktorları ilə barışmamaq, onlarla mübarizə aparmaq və problem olan kimi müayinə aparmaq lazımdır. Bir çox xəstəliklər diaqnostikadan öncə bəlli olmur. Çox zaman insanlar şəkərini və təzyiqini bilmir. 30 yaşdan sonra ildə bir dəfə, 40 yaşdan sonra ildə iki dəfə, 50 yaşdan sonra ildə üç dəfə müayinə olunmaq doğru olardı. Yaxşı olardı ki, hərənin öz inandığı həkimi olaydı.

***- Tibb mütəxəssisləri iddia edirlər ki, Azərbaycanda bir çox xəstəliklərlə yanaşı, ürək xəstəlikləri də cavanlaşır. Siz bu fikirlə razısınızmı?***

- Bunun dəqiq statistikası aparılmalıdır. Ümumiyyətlə, ürək xəstəlikləri sivilizasiya xəstəliyidir. Burada stress faktoru birinci dərəcəli rol oynayır, stress artdıqca ürək xəstəlikləri də artır. İkinci səbəbi isə odur ki, diaqnostika artıb. Azərbaycanın bütün kəndlərində insanlar bilirlər ki, exokardioqrafiya nədir. Artıq informasiya mübadiləsi də artıb. Hansı rayonda nə baş verdiyini biz dəqiq bilirik. Səbəblərdən biri də budur ki, informasiya artıb.

***- Müasir tibbi və texnoloji avadanlıqların geniş yayılması tibbə nə kimi fayda verib?***

- Müasir tibbi avadanlıqlar o qədər inkişaf edib ki, indi ürək xəstəliyindən ölmək gülüncdür. Hətta bizim respublikadanın ayrı-ayrı bölgələrində, rayonlarda, kəndlərdə belə yüksək səviyyədə həkimlər müasir avadanlıqlarla diaqnostika apara bilir. Əgər ölkəmizdə hər hansı kənddə bir kəskin infarkt baş verərsə, onlar xəbər etsələr, biz oraya həkimlərimizi göndərə bilərik və ya sosial şəbəkələr vasitəsi ilə video zəng həyata keçirib canlı konsultasiya apara bilərik. Əvvəllər bunlar bizim üçün möcüzə kimi bir şey idi. Mən 40 ildir həkim işləyirəm, əvvəllər bu cür sürətli inkişaf yox idi. Amerikada hansı müayinə və müalicə aparılırsa, burada da aparılır.

***- Kəskin infarktın əlamətləri nələrdir? Hansı simptomlar insanlara şübhələnmək üçün əsas verir?***

- Yaxşı olar ki, sağlam insanlar ildə bir dəfə yoxlansınlar. Əgər bunu etmirlərsə, heç olmasa hər hansı diskomfort yarandığı zaman, başgicəllənmə, ürək döyüntüsünün artması, təngnəfəslik, ürək nahiyəsində ağrı və sair kimi əlamətlər hiss etdikləri zaman mütləq yoxlanmalıdırlar. Bunu sabaha saxlamaq olmaz. Çünki xəstəyə etdiyimiz tibbi yardım ilk saatlarda daha effektli olur. Saatlar uzandıqca həkimin də, xəstənin də problemi artır. Biz ürək xəstəliklərinin və infarktın bir neçə formasını görürük. Kəskin infarktın tipik simptomları var. Bu çox aydın şəkildə baş verir və onu xəstə də, həkim də dərhal bilir. Sinə nahiyəsində, döş sümüyünün aşağı üçdə birində həyatda olmayan kəskin ağrılardır. Bu ağrı o qədər dəhşətli olur ki, qollara, çənəyə də ağrı verə bilir. Bu tipik klassik ürək infarktının ağrısıdır. İkinci variantda isə bu cür kəskin ağrı yoxdur, onun ekvivalentləri var. Ağrı kürək, qarın nahiyəsində də ola bilər. Mənə bir tanınmış aparıcı zəng vurdu ki, atamın qarın nahiyəsində kəskin ağrı var. Biz dərhal onu müayinə etdik, bəlli oldu ki, kəskin infarkta gedir, dərhal əməliyyat olundu və biz ona 5 stend qoyduq. Tam şəkildə problem aradan qalxdı. Yəni, ikinci əlamətdə ağrılar tipik deyil. Xəstənin çiyni, kürəyi, qarnı ağrıya bilər, bu kəskin olmaya da bilər. Sadəcə, bir diskomfort şəklində ortaya çıxa bilər. Döş qəfəsində hər hansı diskomfort olacaqsa kardioloqa, qarında olacaqsa apendisitdən şübhələnib cərraha müraciət etmək lazımdır. Bəzən də infarkt ağrısız olur, simptomlar minimum olur.

***- Belə ölümlər də var ki, sağlam insan gecə yatır və səhər ayılmır. Bunun səbəbi nə ilə bağlıdır?***

- Bunun səbəbi əsasən ürəklə bağlıdır. Buna qəfləti ürək ölümü deyilir. Qəfləti ürək ölümü bir saat ərzində baş verən ölümə deyilir. Bu bəlli olan və ya bəlli olmayan səbəblərdən baş verə bilər. Əgər bəllidirsə ki, infarkt keçirib, deməli, səbəb budur. Ancaq tam sağlam adam da bəzən yatır və ayılmır. Mənim şəxsi təcrübəm və dünya təcrübəsi göstərir ki, əgər bu cür ölümləri araşdırsaq, biz onlarda mütləq ürək problemi tapacağıq. Onlarda ya hər hansı simptom, ya genetikadan gələn simptomlar ola bilər.

***- İnsanın yaxın qohumlarında ürək xəstəliklərinin olması, onun da risk altında olması deməkdirmi?***

- Ürək xəstəlikləri genetik xəstəlik deyil. Genetik faktor o deməkdir ki, insanlarda genetik meyillik var. Bu, o demək deyil ki, insanlar qorxu altında yaşamalıdır. Əgər valideynlərin birində infarkt varsa, bu insanların riski çoxdur. Amma o adamlar vaxtında müayinə olacaqlarsa, heç bir problem yaşamayacaqlar. Ancaq belə bir risk varsa və həmin şəxslər öz həyat tərzi ilə bu riski daha da artırırlarsa, təbii ki, ürək xəstəliklərinə tutulma ehtimalı böyükdür.

***- Tibb əsasən xəstəliyin müalicəsi üzərində qurulsa da, daha önəmli məqam sağlam insanın xəstələnməsinin qarşısının alınmasıdır. Bunun üçün insan nə etməlidir?***

- Tamamilə haqlısınız. Gələcək tibb müalicənin deyil, profilaktikanın üzərində qurulub. Yəni, hər bir insan 30 yaşa qədər qan analizi verməlidir. Hər hansı narahatlıq yaranan zaman müayinə olunmalıdır. O demək deyil ki, o xəstədir. Hər pasienti biz xəstə hesab etmirik. Biz hər gün müayinə etdiyimiz 10 xəstədən birində problem tapırıq. Qalanlar xəstəlik önü hal və ya normal haldır. Bəzən qadınlar deyirlər ki, ürəyimiz döyünür, gecə yata bilmirəm. Belə pasientlərdə biz heç nə tapmırıq. Bu normal haldır. Ürək elə bir orqandır ki, o standart işləmir, qeyri-standart işləyir. Son illərdə bəlli olub ki, ciddi işləyən ürək daha təhlükəlidir, nəinki aritmiyalı ürək. Ancaq hər halda müayinə olunmalısınız ki, yüz faiz təminat alasınız.

***- Siz İranda da fəaliyyət göstərmisiniz və həmin ölkənin səhiyyəsinə bələdsiniz. Azərbaycanlıların İran səhiyyəsinə bu dərəcədə maraq göstərməsinin səbəbi nədir? İran səhiyyəsi həqiqətənmi Azərbaycan səhiyyəsindən üstündür?***

- Görünür, burada bizim də günahımız var. İnsanlar özlərinə rahat olan, inandıqları və fayda gördükləri yerə gedirlər. Mən də insanlarımızın İrana meyil etməsinə üzülürəm. Ancaq təəssüf ki, fakt belədir. Əgər 90-cı illərdə biz adi bir exokordioqrama üçün İrana xəstə yollayırdıqsa, indi Azərbaycanın kəndlərində bu texnologiya var. Mən son 10 ildə İrana bir nəfər də xəstə yollamamışam. Efirdə də insanlarımıza demişəm ki, çalışsınlar öz ölkəmizdə müayinə olunsunlar. Hətta demişəm ki, kim İranda düzəlməsə, mənim yanınma gəlsin. Mənim yanıma İrandan, Ərəbistandan, Avropa ölkələrindən xəstələr gəlir. Biz bütün protokolları üç dildə - rus, ingilis və Azərbaycan dillərində veririk. Diaqnostikanın birinci mərhələsi danışıqdan başlayır. Heç bir əcnəbi həkim bizim xəstənin dərdini tam başa düşə bilməz. Orada sizə çoxlu vəsait, tərcüməçi və sair lazım olacaq. Həmin həkimləri sonradan tapa bilməyəcəksiniz. Burada isə bizim telefonlarımız 24 saat açıqdır. Bu bizim üstünlüyümüzdür. İran xəstələrin aparılmasında biznes maraqları da var. Orada da müxtəlif səviyyəli həkimlər var. 200 manata buradan taksiyə minib, orada qalmaq, müalicə olunmaq mümkün deyil. Səhiyyədə biznes maraqları olmamalıdır. Mən hazırda İran səhiyyəsinin bizdən üstünlüyünü hiss eləmirəm. Bizim doktorlarımızın səviyyəsi dünya səviyyəsinə bərabərdir. Dünyada ən nadir problemləri biz burada əməliyyat edirik. Bizim insanlarımızın səhiyyəmizə inamını azaldan amillərdən biri də mətbuatdır. Tibbi bilikləri olmayan jurnalist həkimlərin bacarığını qiymətləndirirsə, əlbəttə tamaşaçılarda inamsızlıq olacaq. Mən istərdim ki, mətbuat bu məsələdə həssas olsun.



❑ **Nərgiz LİFTİYEVA**
❑ **Fotolar Məğrur Mərdindir**

**Vokal ifaçısı Gülşən İbadova: Bu adı həm Türkiyə, həm də Azərbaycan "O səs Türkiyə" yarışmasından sonra tanımağa başladı. Qeyri-adi səs imkanlarına, xüsusi istedada malik Gülşənin yarışmadakı iştirakı kimi, oradan uzaqlaşdırılması da səs-küyə, qalmaqala səbəb oldu. İfaçının Türkiyədən geri döndüyünü eşitcək onunla Bakı Musiqi Akademiyasında görüşüb, söhbətləşdik. Gülşən İbadova "Yeni Müsavat"a müsahibəsində professional ifaçı olmasına baxmayaraq, uzun müddətdir ki, Azərbaycanda işsiz qalmasından, "Acun median"nı məhkəməyə verməsindən söz açıb. Maraqlı müsahibəni təqdim edirik:**

# "O səs Türkiyə"nin azərbaycanlı iştirakçısı: "Acun media"nı Avropa Məhkəməsinə verəcəyəm"

## Gülşən İbadova: "Bizi yarışa dəvət edib reytinq, maliyyə qazandılar, sonra da öz məqsədləri üçün çıxartdılar"

***- Gülşən xanım, öncə oxuculara özünüz haqda qısa məlumat verməyiz istərdim...***

- Rusiya Federasiyasında doğulmuşam, ailədə üç uşağıq. Uzun müddət orada yaşamışıq, daha sonra Bakıya köçmüşük. Musiqi ilə 6 yaşımdan məşğulam, amma professional olaraq 14 yaşımdan. Mənim musiqi həyatım demək olar ki, bu sinifdən başlayıb. Rəhmətlik professor Elmira Quliyevanın son tələbəsiyəm.

***- Amma "O səs Türkiyə" yarışmasına qədər sizi ictimaiyyət tanımayıb. Səbəb nə idi?***

- Bu sirr deyil ki, Azərbaycanda heç bir dayaqsız, maliyyə vəsaiti olmadan tanınmaq çox çətindir. Baxmayaraq mən konsertlərdə, dövlət tədbirlərində iştirak etmişəm, amma hamı məni "O səs Türkiyə" yarışmasından sonra tanıdı.

***- Bəs hazırda Azərbaycanda işiniz varmı?***

- Hazırda heç bir yerdə işləmirəm. Təəssüflər olsun ki, bəzi səbəblərdən ötən il Opera və Balet Teatrında da mənim üçün problemlər yaratdılar, ora məni yaxın buraxmadılar. Belə ki, mənə rol vermişdilər, Puççininin "Bogema" operasında Müzetta, "Arşın mal alan" operettasında Gülçöhrənin obrazını canlandıracaqdım, amma heç mənim də bilmədiyim səbəblərdən ordan uzaqlaşdırıldım. Onda çox böyük sarsıntı keçirmişdim.

***- Teatrdan çıxarılmanıza bir səbəb göstərilmədi?***

- Xeyr. Sadəcə, ora gələn gəncləri uzaqlaşdırırlar. Kobud şəkildə desək, monopoliyadır, eyni tərkib, eyni ifaçılar olmalıdır, kənar kadrların ora daxil olması müşkül məsələdir.

Hazırda fərdi olaraq tələbələrim var, onlara vokal dərsləri verirəm. Yəni heç bir dövlət və ya təhsil müəssisəsinə bağlı deyiləm.

***- Bəs "O səs Türkiyə"də nə baş verdi? Yarışmadan ayrılmağınız gəlişiniz kimi səs-küylü oldu.***

- Orda da demişdim, yarışmada iştirak etməyim mənim üçün sürpriz olmuşdu. Yaxın dostum, həm də duet ortağım Mahmud Akan mənim xəbərim olmadan məni qeydiyyatdan



keçirmişdi. Gözlənilmədən iki gün ərzində məni çağırdılar. Mahmud dedi ki, "Gülşən, səni qeydiyyatdan keçiriblər, İstanbula gedirik". Məni orada çox gözəl qarşıladılar. Hələ çıxışımdan əvvəl mənə deyirdilər ki, ifam böyük ajiotaja səbəb olacaq, çünki mənim ifamla bağlı videomu izləmişdilər. Doğrudan da böyük səs-küyə səbəb oldu, Türkiyə xalqı məni çox sevdi, hətta çoxsaylı mənim pərəstişkarlarım oldu. Bu, çox sevindirici hal idi ki, "O səs Türkiyə"nin sayəsində təkcə Türkiyə deyil, məni Azərbaycan da tanıdı.

***- Bəs həmin zaman iş təklifləri gəldimi?***

- Mənim xəbərim olmadı. Çünki iştirak etdikdən sonra ordan uzaqlaşırdıq. Ona görə heç bir şeydən xəbərim olmadı. Amma şərhlərdə hansısa reaksiyaları görürdüm. Xüsusən də Azərbaycan dilində danışmağım xalqımızda rəğbətlə qarşılanmışdı. Hətta orda mənə dedilər ki, əgər mümkündürsə müsahibəni türkcə verin. Dedim ki, mən elə türkcə danışıram. İkinci turda artıq bilirdik ki, yarışmanı tərk edəcəyik. Çünki Göhkan və Hakan qardaşlarının qrupunda 85-90-a yaxın iştirakçı var idi. Onlar 6-lığa bölünmüşdülər, ümumi olaraq onların arasında 4 azərbaycanlı var idi, hər biri də fərqli-fərqli tərzlər idi. Bu, qeyri-professionallıq və öncədən planlaşdırılmış bir məsələ idi və bir ay əvvəldən "Acun media" tərəfindən çox baxış alan videolarımız silinəndə artıq biz bilirdik uzaqlaşdırılmasına şərait yaratdılar. Biz orda öz sözümüzü dedik, lakin həmin hissələri vermədilər.

***- Acunun köməkçisi Naz Sütçü bu ittihamlara cavab olaraq bildirmişdi ki, "Azərbaycandan bu il çoxlu sayda opera ifaçısı gəldiyindən onların arasından seçim etməli idik".***

- Bəs sual olunur, Azərbaycanın hansı opera ifaçısını seçdilər? Heç birini. Bu, Naz xanım tərəfindən verilən çox məntiqsiz bir açıqlama idi. Yarışmadan uzaqlaşdırılan azərbaycanlılar arasında İlham Nəzərov da var idi. Sonda ona sual verəndə ki, "siz niyə seçilmədiz?" İlham əli ilə bizim sıramızı göstərib dedi ki, "qonaq olduğumuz üçün". Bu sözü Naz xanım hörmətsizlik kimi qəbul etdi. Amma bizə qarşı edilən hörmətsizlik o sözün yanında heç nədir.

***- Azərbaycanda da sizin etirazlarınıza qarşı fikir səsləndirənlər, iki ölkə arasında narazılıq salmaqda ittiham edənlər oldu.***

- Doğru deyil. "Acun media" bütün Türkiyə demək deyil. Türklər bizim qardaşımız, dostumuzdur, biz yalnız "Acun media"ya öz etirazımızı bildirmişik.

***- Haqqınızı tələb etməyi düşünürsünüz?***

- Əlbəttə. Ola bilsin ki, mən təzyiqlərə məruz qalım, amma haqqımı tələb edəcəm. Birinci növbədə yarışmanın qanunları pozulub. Heç bir beynəlxalq yarışda gizli seçimlər olmur. Əvvəl bizi yarışa dəvət edib reytinq, maliyyə qazandılar, sonra da öz məqsədləri üçün çıxartdılar. Mənəvi haqqım pozulduğu üçün bu ki, burda nəsə düz getmir. Mənə sual vermişdilər ki, "ən çox hansı performansınız Azərbaycanda sevildi?", dedim ki, "Sarı gəlin", çünki bu, Azərbaycanın xalq musiqisinin tacıdır". Amma həmin hissəni təqdimat müsahibəmdə verməmişdilər. Bizə qarşı çox haqsızlıq edildi. Haqsızlıqdan əlavə təhqirə məruz qaldıq. Çünki fərqli-fərqli tərzdə olan azərbaycanlı iştirakçıları bir qrupa salıb onların yarışmadan yaxınlarda "Acun medianı" Avropa İnsan Haqları Məhkəməsinə şikayət edəcəm. Hazırda vəkilim bununla bağlı son hazırlıqları aparır.

***- Türkiyədən geri qayıtdıqdan sonra da sizə iş təklifləri olmadı?***

- Avropadan təkliflər gəldi. Əvvəldən də mənim Almaniya ilə müqaviləm var idi. İnşallah, çox yaxın zamanlarda bu barədə sevindirici xəbərlərim olacaq.

***- Yarışmada iştirak edərkən bildirmişdiz ki, səsinizin gücü ilə ətrafınızdakı hansısa əşyalara təsir edə bilirsiz. Bu barədə danışardız.***

- Həqiqətən belə bir şey olub. Məlumatı olanlar bilir ki, stəkana təsir etmək üçün hansısa texnika var. Belə ki, səsin gücünü yoxlamaq üçün müəyyən "frekans" var ki, onu 15 saniyədən artıq saxlayanda nazik bakala təsir edə bilir. Səsimin gücü ilə bağlı isə çox maraqlı hadisə yaşamışam. Bir dəfə konservatoriyanın uşaqları ilə birgə karaokeyə getmişdik. Mənim ifamdan sonra karaokenin müdiri gəlib dedi ki, şikayət olunub. Dedi ki, "qızım, səsin çox yüksək olduğundan qonşular polisə şikayət edib" (gülür).

***- İfaçılıqdan başqa hansı bacarığınız var? Bildiyim qədər bütün səhnə paltarlarınızın hamısını özünüz tikirsiz.***

- Doğrudur. İlk paltarımı 8-ci sinifdə oxuyarkən tikmişəm. Sonralar bütün həm gündəlik həm də səhnə paltarlarımı özüm tikməyə başladım. Əynimdə hazırda gördüyünüz bu geyimi də özüm tikmişəm.

***- Bu bacarığınızdan qazanc üçün istifadə etmisiz?***

- Bu vaxta qədər yalnız bacım və özüm üçün paltar tikmişəm. Ola bilər ki, gələcəkdə özümə aid bir marka yaradım.

***- Bacınızdan söz düşmüşkən, hərdən bacınız Dilşənlə sizi səhv salırlar. İkiniz də istedadlı ifaçısınız və sizi görkəmcə ayırmaq çətindir.***

- Hətta uşaqlıqdan bizi səhv salırlar. Bəzən müəllimlər mənim qiymətimə ona, onunkunu da mənə yazırdılar (gülür).

***-Əkizsiz?***

- Yox. Bizi yalnız daha yaxından tanıyan fərqləndirə bilir. Amma efirdə həyatdan çox bir-birimizə bənzəyirik. Hətta yarışmadan sonra yerli mətbuatda yazdılar ki, guya mənim adım Gülşən deyil, Dilşəndir. Bu da mənə çox pis təsir etdi ki, mən niyə adımı gizlətməliyəm ki. Bacımın da çox gözəl səsi var. Amma səslərimizdə fərqlilik var, o daha çox estrada musiqisinə üstünlük verir.

❑ **Xalidə GƏRAY**
❑ **Məğrur SALMANOV**

# Bufet kimindir?



**Sevinc TELMANQIZI**
s.qurbanova@gmail.com

**Son günlər hamı eyzən ondan danışır. ATV-nin "Yoxlama" verilişindəki süjetdən sonra Xətai rayonu 171 saylı orta məktəbin direktoru Telman Qardaşovun dünyasını dəyişməsi rəsmən insanın əl-qolunu soyudub. Süjeti izləyənlər bilir. Aparıcı məktəb bufetini yoxlamaq istəyir, içəridən gələn qoxunun mənbəyini öyrənmək üçün bufetin qapısının açılmasını tələb edir, amma bufet bağlı olur. Məktəbin direktoru isə israrla aparıcıya bildirir ki, bufet bizim məktəbin səlahiyyətində deyil. Aparıcı anlamır, israr edir və...**

İzləyənlər bilir. Bu günə qədər "Yoxlama" verilişinin ilginc üslubu ilə bağlı dəfələrlə yazmışıq. "Eşşəyə gücü çatmayıb, palan döyəcləyən" mətbuatımızın tipik örnəklərindən biridir. Harda yiyəsiz, sahibsiz, arxasız iaşə obyekti, restoran varsa, qardaşlar gedib, oranın, ordakıların gününü qara edir, qazanlarını yoxlayır, boşqablarını sorğulayırlar. Pismi edirlər? Xeyr! Əgər bu prinsipiallıq insanların axın etdiyi məkanlarda da keçərli olsaydı, çox daha məmnun olardıq. Amma və lakin...

Mən indi Telman Qardaşovun dünyasını dəyişməsində bu verilişin nə qədər rolu olduğunu sorğulamaqdan uzağam. Bunu araşdırmanı aparan orqanlar bizə deyəcək. Ona qalsa bu ölkədə Xoşqədəm Baxşəliyevanın verilişinə baxdığı yerdə ürəyi tutub, dünyasını dəyişən insan da olub. Hadisə yerindən reportajı özüm hazırladığım üçün bilirəm - yaxınları bir ağızdan deyirdilər ki, verilişə görə olub, amma qonşuları onun çox yeməsini, şəkər xəstəsi olmasını əsas gətirirdilər. Yəni, bu məsələlərdə dəqiq bir rəy vermək hər zaman çətindir.

Amma dəqiq rəy verə biləcəyimiz bir məsələ var. Birincisi, aparıcı müəllimin qeyri-peşəkarlığı. Məktəb bufetindən çəkiliş edən adama direktor dəfələrlə deyir ki, bufet bizim səlahiyyətimizdə deyil, firma tənzimləyir oranı. Hətta təhsil sistemindən azacıq anlayışı olan jurnalistlər də bilir ki, direktor həqiqəti deyir. Məktəb bufetləri vaxtilə "Məktəbli və Tələbə" İaşə Açıq Tipli Səhmdar Cəmiyyətinin tabeliyində idi və bu quruma da bilavasitə Təhsil Nazirliyi nəzarət edirdi. Hazırda isə ayrı-ayrı şirkətlər məktəbləri ərzaqla təmin edir. BŞTİ-dən bildirilir ki, məktəb bufetlərində qidaların keyfiyyətinə həm şirkətlər özləri, həm də digər əlaqədar dövlət qurumları nəzarət etməlidir. Ötən ildən başlayaraq məktəblərdə fəaliyyət göstərən bufetlərin məktəblərlə müqavilələr bağlaması yenilikdir. Belə ki, təhsil müəssisəsi ilə imzalanan müqaviləyə əsasən məktəbləri qida məhsulları ilə hüquqi və yaxud fiziki şəxslər təmin edir. Məktəblərlə əməkdaşlıq imkanını əldə etmək üçün operatorlar pul vəsaitlərini BŞTİ-nin bank hesabına, şagirdlərin sayına mütənasib olaraq köçürür və bu vəsaitlər məktəbin maliyyə ehtiyaclarının təmin edilməsinə sərf edilir.

Bakının məktəb bufetləri "Məktəbli və Tələbə" İaşə Açıq Tipli Səhmdar Cəmiyyətinin tabeçiliyində deyil. İdarə ilə şirkətlər arasındakı müqaviləyə əsasən təsdiq olunmuş siyahıda olan ərzaqlardan başqa heç bir qida bufetlərə verilmir. Məktəb bufetlərində qidaların keyfiyyətinə həm şirkətlər özləri, həm də digər əlaqədar dövlət qurumları nəzarət etməlidir.

Bəli, həqiqət budur. Direktorun boğazına çökən jurnalist birbaşa firma rəhbərliyini tapmalı idi. Üstəlik, sorğulamağa gücü çatırsa, Təhsil Nazirliyini sorğulamalı idi. Soruşmalı idi ki, bu firmalara səlahiyyət verilibsə, bəs niyə nəzarəti əldən buraxmısız? Məktəb bufetlərində çipsdən, koladan, energetik içkilərdən tutmuş, zərərli bir çox məhsullara qədər hər şey satılır. Dəfələrlə ekspertlər deyiblər ki, məktəblərdə meyvə aparatı qoyulmalı, uşaqlar ora 20 qəpik atmaqla bir alma, bir mandarin... götürə bilərlər. Amma bunu dinləyən belə yox. Firmalar axşamdan hazırlanan bulkaları boyat şəkildə səhərlər məktəblərə gətirirlər. Nəticə? Bunun kimi onlarla şikayət var. Sorğulama, hesab sorma burdan başlamamalıdırmı?

Dəfələrlə uşaqlarınızın yemək çantasından firması, istehsal və son istifadə tarixi bəlli olmayan bulkalar, çipslər çıxmayıbmı? Uşaq bu, siz evdən ona faydalı yeməklər qoysanız da, o, mütləq sinif yoldaşlarına, ümumi əhvala uymaq üçün bufetə gedir. Bunun qarşısını almaq isə təkcə məktəb direktorunun səlahiyyətində deyil. Gücünüz varsa, obyektə getmədən öncə kiçicik araşdırma aparmısıza, birbaşa aidiyyatı olan qurumların və şəxslərin yaxasından yapışmaq daha doğru olar.

Necə deyərlər, mövzu doğru, məkan doğru, amma cavab verəcək şəxs yanlışdır. O halda bu prosesdən heç bir nəticə gözləmək olmaz. Təbii ki, əgər məqsəd ucuz şou yaratmaq deyilsə.

# “Sovetski”də əhali hələ də köçürüləcəyi günü gözləyir

## Sökülən ərazidə 23 hektarlıq park salınacaq

**Bakının “Sovetski” kimi tanınan məhəlləsinin söküntülər aparılan 26 hektarlıq ərazisində abadlıq işləri aparılır. Qeyd edək ki, “Sovetski”nin Mirzağa Əliyev, Dilarə Əliyeva, Süleyman Rəhimov, Mustafa Sübhi, Zülfi Adıgözəlov, Abdulla Şaiq küçələrindəki evlər, demək olar ki, tamamilə sökülüb.**

Ərazidə olduğumuz zaman müşahidə etdik ki, havanın soyuq, ərazinin qar olmasına baxmayaraq, “Azəravtoyol” ASC-nin əməkdaşları təmir işlərini davam edirdilər. Əraziyə kanalizasiya sisteminin çəkilməsi üçün lazımi qurğular da gətirilib.

Məsələ ilə bağlı qurumun mətbuat xidmətinin rəhbəri Anar Nəcəfli “Yeni Müsavat”a bildirdi ki, ərazidə bütün işlər ən yüksək səviyyədə aparılır:

“Hazırda ərazidə bizim qurumun əməkdaşları işlər aparırlar. Yol çəkilib yekunlaşana doğru, parkın da salınmasına başlanacaq və ətraflı abadlıq işləri aparılacaq. Orada bütün kommunikasiya xətləri yenilənəcək. Hazırda da bununla bağlı işlər görülür. Bütün hər detal nəzərə alınaraq, həmin ərazidə tam müasir infrastruktur yaradılır. Görülən işlər də aydın olduğu kimi sıfırdan başlanılıb. Ərazidə başqa hər hansı bir tikili olmayacaq. 23 hektarlıq yerdə park salınacaq, 3 hektarda isə yol çəkiləcək”.

Qeyd edək ki, mövcud plana əsasən “Sovetski”də birinci mərhələdə “Nizami” metrosunun arxasından “Nərimanov” prospektinə qədər, Balababa Məcidov, Fuad İbrahimbəyov küçələri və Nərimanov prospektinə düşən ərazinin köçürülməsi nəzərdə tutulur. İkinci mərhələdə isə Nərimanov prospektindən yuxarı, İsmayıl Qutqaşınlı küçəsinə qədər olan hissə köçürüləcək. Üçüncü mərhələni isə şərti olaraq, “Təzə Pir” mərhələsi adlandırırlar. Bu mərhələdə köçürülmə Murtuza Muxtarov və Nərimanov prospektini, Süleyman Tağızadə küçələrinədək olan ərazini əhatə edəcək.








“Sovetski”nin digər ərazilərində də olub, orada yaşayanların da durumunu öyrəndik. Hələ də məhəllədə yaşayan sakinlər bildirdilər ki, onlara köçürüləcəkləri ilə bağlı xəbər verilib, amma bu, nə vaxt olacaq, hələ bilinmir. Sakin İlkin Ağayev bildirdi ki, ərazidə bütün evlərin ümumi sahəsini ölçüblər: “Bizim də ev daxil olmaqla, hamısını ölçüb köçürüləcəyimizi deyiblər. Elə içi biz qarışıq, insanlar daha əvvəlki kimi köçürülməyə qarşı çıxmırlar. Çox adam artıq bunu qəbul edib. Onsuz da məhəllənin bir hissəsini köçürüblər. Yəni daha əvvəlki ”Sovetski" qalmayıb. Bundan başqa da, hazırda bu ərazilərdə yaşayanların çoxu kirayə qalanlardır. Biz də gözləyirik ki, nə zaman bu iş başlanacaq. Yenə də əvvəlki problemlər qalmaqdadır. Belə ki, mənzilinin sahəsi az olanlar narahatdırlar, çox olanlar isə köçəcəkləri günü gözləyirlər. Yəqin ki, az kvadratlı mənzillərdə yaşayanlar nəzərə alınacaq. Onlara hər hansı bir formada güzəştlər ediləcək. Belə olmasa, yenə də narazılıq olacaq. Hər halda köçürürlərsə, sakinlərin rahatlıqlarını da təmin etməlidirlər".

Sakinlər bildirdilər ki, onlara da əvvəlki qaydada mənzilin hər kvadratmetri üçün 1500 manat veriləcəyi söylənilib. Hara köçürüləcəkləri isə hələ ki, məlum deyil. Sakinlərin sözlərinə görə, onlara bildirilib ki, şirkətlər binalar tikəcək və “Sovetski”dən köçürülənlərə də orada evlər veriləcək.

Sakinlər özləri də etiraf edirlər ki, şəraitsiz evlərdə yaşamaq çətindir. Üstəlik, işıq və qaz xətlər yararsız vəziyyətdədir. Elə yanvarın 27-də də “Sovetski”nin Həzi Aslanov küçəsində 5 ailənin yaşadığı üçmərtəbəli yaşayış binasında yanğın də qısaqapanmadan baş verib. Yada salaq ki, yanğın nəticəsində bir nəfər dünyasını dəyişib. Həmin mənzildə də olub bəzi məlumatları öyrəndik. Belə ki, biz orada olduğumuz zaman Mənzil-kommunal İstismar İdarəsinin əməkdaşları mənzilə baxış keçirirdilər. Onlar bildirdilər ki, yanan mənzilin qapılarını bağlamaq üçün gəliblər: “Yanğın söndürülən zaman qapılar da qırılıb. Onları düzəltmək üçün gəlmişik”.

Yaxınlıqda yaşayan sakinlərdən öyrəndik ki, hadisə ehtiyatsızlıq nəticəsində baş verib. Belə ki, yanaraq dünyasını dəyişən 1969-cu il təvəllüdlü Liliya Mixaylovna qaz sobasından başlayan yanğını söndürməyə cəhd göstərib. Lakin bunu bacarmayıb və içəridə qalaraq dünyasını dəyişib.

❑ **Əli RAİS**

**Fotolar müəllifindir**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)

**Tel: (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Dəm qazı daha iki can aldı - Xaçmazda...

**Xaçmaz rayonunda iki nəfər dəm qazından boğulub. APA-nın şimal bürosunun verdiyi məlumata görə, rayonun Qarabağlı kənd sakinləri 1968-ci il təvəllüdlü Tağıyev Namiq Rza oğlu və 1976-cı il təvəllüdlü Mustafayeva Xalidə Yadigar qızı dəm qazından boğularaq ölüb.**

Hər iki şəxsin meyiti ekspertizadan keçirilməsi üçün Xaçmaz Mərkəzi Xəstəxanasının morquna gətirilib. Faktla bağlı araşdırma aparılır.

YENİ MÜSAVAT
N 20 (6634) 30 yanvar 2017

**Hazırda təxminən hər 10 azərbaycanlıdan birində mühacirətlə bağlı planlar, arzular var. Araşdırır, axtarır, xoşbəxtliyin xarici ölkədə olduğunu düşünüb, bu istiqamətdə hərəkətə keçirlər. Amma bununla yanaşı, artıq Avropa ölkələrində də gələn mühacirlərə qarşı şərtlərin dəyişməsi heç kimə sirr deyil. Qaçqın düşərgələrində keçən ağır günlər, şərtlər, məhrumiyyətlər. Heç də hər kəsin durumu, əsəbləri, dözümü buna uyğun deyil...**




# Pulun var?... Avropa vətəndaşı ola bilərsən!

## Avropa ölkələrinin vətəndaşı olmaq arzusuna düşənlər üçün şərtlər və qiymətlər; milyonlar havada "uçuşur"...

Amma qaçqın olmaq da şərt deyil. Hansısa Avropa ölkəsində vətəndaşlıq almaq istəyənlər üçün də yaşıl işıq yanıb. Xarici ölkələrdə vətəndaşlıq almaq üçün bir az məsrəfli, amma alternativ yollar var. Bunlardan biri də xaricdə mülk almaq və ya yatırım qoymaqdır. Axtarış apararkən "Washington Post" qəzetində "Pulun varsa, vətəndaşı ola biləcəyin və ya yaşayış icazəsi ala biləcəyin 7 ölkə" adında yazıya rast gəldik. Həmin məqalədə cəmi 7 ölkədən söz açılır.

**Vətəndaşlıq almaq olar - amma milyonlar "havada uçuşarsa..."**

Bunlardan birincisi Macarıstandır - 2012-ci ildə Macarıstan immiqrasiya haqda qanununa əlavə etdi. Həmin əlavəyə görə, Macarıstanın xüsusi hökumət bondlarını, yəni qiymətli kağızlarını, istiqrazlarını alan xariciyə vətəndaşlıq verilə bilər. Bunun üçün onun 322 min dollarlıq bond alması kifayətdir. Başqa Avropa Birliyi ölkələrindən fərqli olaraq Macarıstan investorlardan daşınmaz əmlak almağı və ya ölkədə daimi yaşamağı tələb etmir.

Maltada vətəndaşlıq almaq istəyən 1,57 milyon dollar verməlidir. Malta 2013-cü ildə bu qərarını elan edəndə vətəndaşlığın satış qiymətini 865 min dollar qoymuşdu, ancaq müxalifətin etiraz nümayişlərindən sonra hökumət qiyməti az qala iki dəfə qaldırdı. Həmin etirazlar qanunda məhdudiyyətlərə də gətirdi. Malta vətəndaşlığı almaq istəyən Maltada daimi yaşamalıdır və vətəndaşlıq ən çoxu 1800 adama veriləcək.

Qəzetin yayımladığı siyahıda ən bahalı vətəndaşlıq verən ölkə olaraq Kiprin adı qeyd olunub. Burada vətəndaşlıq almaq istəyən şəxs 6,2 milyon dollar verməlidir. Böyük investor qrupu daxilində investisiya edənə vətəndaşlıq isə 2,48 milyon dollaradır.

Kiprin bu proqramı varlı rusiyalıları hədəf götürüb.

Dominikan Respublikasında vətəndaşlıq almaq istəyən fərd 100 min dollar ödəməlidir. Həyat yoldaşı ilə birlikdə vətəndaşlıq almaq istəyən isə 175 min dollar verməlidir. Müraciəti verənlərin ölkədə yaşaması tələb olunmur.

Müqəddəs Kits və Nevlis - Karib dənizində iki adadan ibarət olan bu ölkədə vətəndaşlıq almaq müraciəti cəmi 3 səhifədən ibarətdir. Vətəndaşlıq almaq istəyən adalarda daşınmaz əmlaka 400 min dollar qoymalıdır və ya ölkənin Şəkər Sənayesi Fonduna 250 min dollar ianə verməlidir.

Antiqua və Barbuda - bu ölkələr də Müqəddəsd Kits və Nevils adalarından şərqdə yerləşir. Burada da vətəndaşlıq almaq üçün gərək 400 min dollarlıq daşınmaz əmlak alasan ya da xeyriyyəyə 200 min dollar verəsən.

Karib adalarında yerləşən Qrenada vətəndaşlıq almaq istəyənlərdən Qrenadada fəaliyyət göstərən şirkətlərin 311 min dollarlıq səhmini almasını tələb edir.

**Küveytdə vətəndaşlıq almaq çətin, BƏƏ-də isə asandır**

Dünyada vətəndaşlıq almaq baxımından ən çətin ölkə Küveyt əmirliyidir. Hətta bu ölkə vətəndaşı ilə evlənmək və övlad sahibi olmaq da vətəndaşlıq almağa kifayət deyil. Küveyt vətəndaşlığını şəxsən əmir IV Sabah özü verir. Yalnız bayram günlərində vətəndaşlıq paylayan əmir ildə yalnız 20-30 miqrantı sevindirir. Miqrant Küveyt və əmir qarşısında xüsusi xidmətlərə görə, məsələn, sui-qəsd zamanı əmirin həyatını xilas etdiyinə görə vətəndaşlığa ümid edə bilər.

Yaxın Şərqin ən zəngin ölkələrindən sayılan Birləşmiş Ərəb Əmirliklərində ən asan vətəndaşlıq yerli sakinlərə ərə getmiş qadınlara verilir. Lakin bu proses də xeyli vaxt aparır. Əmirliklərin vətəndaşı ilə ailə həyatı qurmaq, 10 il bu nikahda yaşamaq və öz vətəndaşlığından imtina belə, əcnəbi qadına vətəndaşlıq verməyə kifayət etmir. BƏƏ Daxili İşlər Nazirliyinin razılığı bu prosedurda həlledici rol oynayır. Maraqlıdır ki, bu imtiyazlar yalnız əcnəbi qadınlara aiddir. Ərəb Əmirliklərinin sakini olan qadınlarla evlənmək əcnəbi kişilərə vətəndaşlıq almaq hüququnu vermir. BƏƏ Küveyt, Bəhreyn və Oman vətəndaşlarına 3 ildən, digər ərəb ölkələrinin sakinlərinə isə 7 ildən sonra vətəndaşlıq hüququ verir.

Qalan ölkələrin vətəndaşları isə bu hüququ yalnız 30 il BƏƏ-də yaşadıqdan sonra əldə edirlər. Bu müddətdə onların əldə etdikləri gəlir, yaxud məşğul olduqları biznes önəmli olmur.

Böyük maliyyə imkanları olan şəxslər Avropa Birliyinin üzvü olan Cənubi Kiprdə asanlıqla vətəndaşlıq ala bilərlər. Bunun üçün adada dəyəri 2,5 milyon avrodan ucuz olmayan daşınmaz əmlak alınmalıdır. Ya da investor eyni məbləği Kiprin qiymətli kağızlarına və yerli biznesinə yatırmalıdır. Bütün bunlar, ölkə qarşısında xidmətlər sayılacaq və 4-5 aya vətəndaşlıq almağa kifayət edəcək.

**Fransada vətəndaşlıq üçün 5 il burda yaşamaq lazımdır, amma...**

Digər dünya ölkələrində də vəziyyət o qədər "ucuz" deyil. Böyük Britaniyada vətəndaşlığını almaq üçün "cəmi" 1 milyon funt ödəmək kifayətdir. İnvestor 750 min funtdan az olmayan bir məbləği Britaniya iqtisadiyyatına, eyni zamanda 250 min funtdan az olmayan məbləği isə Birləşmiş Krallıq ərazisində daşınmaz əmlaka yatırmalıdır. Və yaxud da bu məbləğ Britaniya banklarından birində olan hesaba yatırılmalıdır. Bundan sonra investor öz ailəsi ilə birlikdə bu ölkədə qanunla yaşamaq və işləmək hüququ əldə edir. Beş ildən sonra ailə yaşayış icazəsi, bir ildən sonra isə vətəndaşlıq əldə edir. Daha varlı insanlar üçün vətəndaşlığın verilməsi proseduru sürətləndirilə bilər. Ölkəyə 5 milyon funt sərmayə yatırdıqda vətəndaşlıq 4 ildən, 10 milyon funtdan çox sərməyə yatırdıqda isə 3 ildən sonra verilə bilər.

Avstraliyada 4,7 milyon dollarlıq investisiya qoyanlar viza alaraq yerləşə bilir.

Almaniyada nisbətən ucuzluqdur. Burada isə minimum kapital 250 min avro təşkil edir. Sözügedən məbləği ödəyən xaricilər ölkənin vətəndaşlığı qazanırlar.

Araşdırmalara görə, İngiltərə 13 ildə 2 milyondan artıq qaçqına vətəndaşlıq verib. İngiltərə hər 2,5 dəqiqədə bir şəxsə vətəndaşlıq verir.

Makedoniyada 40 milyon avroluq daşınmaz əmlak alan xaricilərə bir illik vətəndaşlıq icazəsi, 400 min avro dəyərində yatırım edənlər və ən az 10 işçisi olanlar Makedoniya vətəndaşı ola bilirlər.

Bolqarıstan azı bir il ölkədə daimi yaşayan və 1,2 milyon dollarlıq yatırım edənlərə vətəndaşlıq verir.

Polşa və Fransa orada müvəqqəti yaşamaq hüququ olan əcnəbidən ölkə ərazisində daim olmasını tələb etmir, lakin bu ölkələrdə daimi yaşayış hüququ almaq çox mürəkkəbdir. Polşada bu ölkənin tarixindən imtahan verməli və polyak dilində kifayət qədər səlis danışmaq tələb olunur. Fransada isə yerli dili bilməkdən əlavə, həm də ayda 2600 avrodan az olmayaraq gəlirə malik olmaq lazımdır. Fransada vətəndaşlıq almaq üçün azı 5 il bu ölkədə yaşamaq lazımdır. Yerli universiteti bitirən, yaxud yerli vətəndaşla ailə həyatı quran miqrantlara bu müddət qısaldılır. Fransanın əcnəbilərdən təşkil olunmuş Xarici Legionunda xidməti zamanı yaralanan şəxslərə isə vətəndaşlıq dərhal verilir. Amma bütün vətəndaşlıq almış şəxslər fransız dilini lazımi səviyyədə bildiklərini sübut etməlidirlər. Fransanın xeyrinə beynəlxalq yarışlarda mükafat qazanmış idmançılar da asanlaşmış şərtlərlə yerli pasporta sahiblənirlər.

**İspanlarla bir ölkənin vətəndaşı olmaq üçün 500 minlik ev almaq yetərlidir**

İspaniya hökuməti isə 2013-cü ilin sonlarından etibarən 500 mindən çox avro ödəyərək daşınmaz əmlak alanlara vətəndaşlıq verməyi qərara alıb. Bundan əlavə, dövlət istiqrazlarına 5 il müddətinə sərmayə yatırdıqda vətəndaşlıq əldə etmək olar. Bunu ispan şirkətlərinə 1 milyon avro sərmayə yatırmaqla, yaxud bu məbləği depozit hesabına yatırmaqla etmək olar. Lakin ümumi qaydalara görə, investor yalnızca 10 ildən sonra vətəndaşlığını təsdiq edə bilər.

Portuqaliya hökuməti də 2013-cü ildə "Golden Residence" proqramını yaratdı və bu proqram əsasında əcnəbilərə asanlaşdırılmış şərtlərlə vətəndaşlıq təklif edirdi. Bunun üçün 500 min avroya daşınmaz əmlak almalı və növbəti 5 il ərzində satmamalı idi. Yaxud da investor Portuqaliya iqtisadiyyatını minimum 1 milyon avro həcmində investisiya etməlidir. Bundan sonra investor ölkəyə ilk səfəri zamanı 1 illik yaşayış hüququ rəsmiləşdirə bilər. Gələcəkdə o bu müddəti uzada bilər. İnvestor ölkədə 6 il yaşadıqdan sonra vətəndaşlıq əldə edə bilər. Proqramın şərtlərinə görə, ilk ildə ölkədə məcburi qalma müddəti 7 gün və növbəti illərdə 14 gün təşkil edir.

Kanadada da investisiya qarşılığında vətəndaşlıq almaq mümkündür. Bunun üçün xarici ölkə vətəndaşları biznesi idarə etmək təcrübəsinə malik olduğunu və kapitalının 1,6 milyon Kanada dollarından çox olduğunu və sərvətinizi qanuni yollarla qazandığınızı sübut etməlidir. Bundan sonra əcnəbi şəxs ölkə iqtisadiyyatına 800 min Kanada dolları sərmayə yatırmalıdır. Kanada hökumətinin rəsmi saytında bu investisiyanın nəyə xərclənməsinin göstərilməsi ilə yanaşı, bu ölkədə 5 il və 3 ay yaşadıqdan sonra investisiyanın geri qaytarılmasına zəmanət verilir. Burada yalnız bir mənfi cəhət var ki, ərizənin baxılması müddəti 2 ilə çata bilər. Burada Quebec əyaləti də investorlara proqram təqdim edir. Bu proqramın şərtləri də demək olar ki, eynidir. Yeganə fərq ondadır ki, burada bütün investisiya Quebec iqtisadiyyatının inkişafına xərclənir və ərizənin baxılma müddəti 1 ildir.

Amerika miqrasiya üçün ən populyar ölkələrdən biridir. Bununla belə, ən adi turistik viza almaq istəyən əcnəbilər bir qədər zəhmət çəkməli olur. Lakin varlı investorların digər bir çıxış yolu var: amerikan start-uplarına minimum 500 min dollar sərmayə yatırdıqda və minimum 10 leqal iş yeri yaratdıqda, biznesmen məşhur amerikan "Green Card"ını əldə edə bilər. "Green Card" ABŞ-da yaşama hüququnu təsdiq edən şəxsiyyət vəsiqəsidir. Gələcəkdə ölkənin vətəndaşlığını əldə etmək üçün investor 5 il ABŞ-da yaşamalı, ingilis dilini, ABŞ-ın tarixini və hüquq sistemini bilməli və sədaqət andı içməyə hazır olmalıdır.

❑ **Sevinc TELMANQIZI**

# YENİ MÜSAVAT

## Son səhifə

N 20 (6634) 30 yanvar 2017




# Qadınlar çirkin kişi ilə daha çox xoşbəxt olur

ABŞ-ın Tennessi Universitetinin mütəxəssisləri 5 il ərzində 82 cütlüyün evlilik həyatını izləyərək araşdırma aparıb. Onların gəldiyi qənaətə görə, həyat yoldaşı özündən çirkin olan qadınlar özlərini daha xoşbəxt və daha güvəndə hiss edirlər. Ekspertlər həyat yoldaşından daha cəlbedici olan bir kişinin kiçik eşqbazlıqlar etmə şansının daha çox olduğunu, belə bir xəyanət ehtimalının isə qadının rahatlığını və xoşbəxtliyini pozduğunu deyiblər.

Sosial münasibətlər üzrə professor Albert Daniel isə tərəf müqabili çirkin olan kişilərin qadınına daha çox sahib çıxdığını bildirib. O, vurğulayıb ki, bu sahibliyin səbəbi qadınların ər olaraq özlərindən daha çirkin kişiləri seçməsindən qaynaqlanır. Bir çox qadınların çirkin kişilərlə birlikdə olduğu, hətta bundan çox razı olduğu həqiqətdir. Seriallarda, küçədə gəzərkən və yaxud hər hansı bir məkanda belə cütlüklərə tez-tez rast gəlinir.

# Klassik musiqi insan beynini oyadır

Çoxsaylı təcrübələr sübut edir ki, klassik musiqi insanda həzz hormonunun ifrazını gücləndirir, baş beyin elektromaqnit dalğalarının amplitudunu azaldır. Alimlər araşdırma zamanı beyin sahələrinin aktivlik şəklini almaq üçün maqnit rezonansı vasitəsilə beyni skanlaşdırıblar. Bethovenin, Şumanın, Şopenin, Baxın əsərləri dinlənildikdən sonra beyin qabığının müəyyən sahələri oyanıqlı vəziyyətə keçiblər. Amma Motsartın əsərlərinə qulaq asdıqdan sonra beyin qabığının bütün sahələri, o cümlədən hərəkət koordinasiyası, görmə, şüurun ali proseslərini idarə edən və məkanda dərk etməni nizamlayan mərkəzlər aktivləşib.



# Doğulduğu fəsil insan taleyinə təsir edir



İnsanın gələcək taleyinin doğum ayı ilə bağlı olduğunu aşkarlayıblar. Belə ki, insanın çəkisi, boyu, optimist, yaxud pessimist olması onun hansı fəsildə anadan olmasından asılıdır. Məsələn, baharda doğulanlar ən ağrılı, yayda doğulanlar isə ən şən uşaqlar olur. Solaxay uşaqlar ən çox qış aylarında dünyaya gəlir. Dekabr, yanvar, fevralda doğulan qış uşaqlarının ürək-damar xəstəliklərinə meyli yüksək olur. Qış aylarında doğulan qız uşaqlarının xolesterin riski yüksək olur. Bahar aylarında doğulanlar fiziki cəhətdən həssas, allergik xəstəliklərə meylli olur. Psixoloqların fikrincə, bu uşaqlar doğuşdan zəif olur, hər rolu asanlıqla qəbul edirlər. Bununla yanaşı, qarşısındakını səbirlə dinləməyi də bacarırlar. Lider olmaqdan imtina edirlər, bir çox məsələlərdə düzgün fikir yürütməyi də bacarırlar. Bu cür uşaqların valideynləri uşaqlarda özünə inamı formalaşdırmağa çalışmalıdırlar.

Yayda dünyaya optimist və şanslılar göz açır. Bunu Hertfordşira Unversitetinin alimləri sübut edib. Bu uşaqlar özünə inanan, pozitiv, həyatsevər və özlərini xoşbəxt sayanlardır. Eləcə də psixoloqlar qeyd edir ki, yay uşaqları həssas, emosional, çılğın, mehriban və kindən uzaq olanlardır. Əməksevər və risk etməyi xoşlayan bu uşaqların valideynləri uşaqların bu cür xüsusiyyətlərinə hazır olmalı və onlara mane olmaqdan çəkinməlidirlər.

Payız aylarında uzunömürlülər dünyaya gəlir. Avstraliya və Norveçdə milyonlarla insanlar üzərində aparılan təcrübələrdən məlum olub ki, ən uzunömürlülər məhz sentyabr, oktyabr və noyabrda doğulanlardır. Bu insanlarda balanslaşdırılmış xarakter, sakit təbiət, ağıl, bacarıq və nikbinlik özünü göstərir. Onlar dostları və valideynləri ilə münaqişəsiz yaşayanlardır. Əgər valideynlər körpəlikdən onları düzgün istiqamətləndirsələr, gələcəkdə uğur qazanmaları qaçılmazdır.



# Daim nəvəyə baxmaq nənə-babalara ziyandır

Almaniya, İsveçrə və Avstriya alimləri sübut edib ki, digər insanlara qayğı göstərən yaşlı insanlar daha çox yaşayır. Alimlər 1990-2009-cu illərdə keçirilən sorğuların məlumatlarını araşdırıblar. Sorğularda yaşı 70-dən 103-ə qədər olan 500 insan iştirak edib. Məlum olub ki, öz nəvələrinə və ya digər uşaqlara baxan yaşlı insanlar 3-4 il daha çox yaşayır.

Alimlərin fikrincə, bu nəticə yalnız vaxtaşırı olaraq uşaqlara baxan yaşlı insanlara aiddir. Daim nəvələrlə məşğul olmaq, əksinə, qocalarda stress yaradır ki, bu da sağlamlığa mənfi təsir edir.






**QOÇ** - İndiki məqamda lovğalıq və özündənrazılıq kimi hisslər sizə başucalığı gətirən deyil. Bu səbəbdən də reallığa qiymət vermək lazımdır. Planlarınızı gerçəkləşdirməkdə təcrübəli adamlardan yararlanın.



**BUĞA** - Yaxşı olar ki, sizə aidiyyatı olmayan məsələlərə qarışmayasınız. Əlavə başağrısı nəyinizə lazımdır? Öz ideyalarınızı reallaşdırmağa çalışın. Əsas vaxtınızı isə sevgiyə yönəldin.



**ƏKİZLƏR** - Bu maraqlı təqvimdə səfərə çıxmaq üçün şanslarınız var. Odur ki, hazırlaşmağa dəyər. Yalan vədlər vermək, yaxın adamları aldatmaq sizə zərər yetirə bilər. Bəxtinizdə pul da var.



**XƏRÇƏNG** - Qarşılıqlı münasibətlər zəminində bəzi xoşagəlməzliklərlə rastlaşa bilərsiniz. Odur ki, özünüzü mümkün qədər cilovlamalısınız. Nəqliyyatdan az yararlanın. Fiziki işlərə ara verin.



**ŞİR** - Bəxtinizdə mistik bir gün durur. Belə ki, qeyri-adi hadisələr, anlaşılmaz situasiyalar sizi müşayiət edəcək. Hisslərinizə nəzarət etməyi unutmayın. Ziyarətgahlara da baş çəkin.



**QIZ** - Ulduzların düzümü təxminən saat 13-dək riskli işləri təxirə salmağı tövsiyə edir. Əks təqdirdə mübahisələrə mübtəla olacaqsınız. Sonrakı müddətdə isə yeni təkliflər alacağınız gözlənilir.



**TƏRƏZİ** - Ulduzlar ilk növbədə əsəblərinizi qorumağı tövsiyə edir. Çünki indiki məqamda çılğınlıq etməyiniz sizi çox şeydən məhrum edə bilər. Əməkdaşlıqda isə uğurlarınız gözlənilir.



**ƏQRƏB** - Bacardığınız qədər neytral olun. Yeni işlərə başlamaq, risk etmək, hansısa qeyri-müəyyən münaqişələri yatırtmaq fikrinə düşməyin. Yalnız adi işlər görməklə bu təqvimi başa vurun.



**OXATAN** - Qarşınızda mübahisəli bir təqvim durur. Hisslərinizi cilovlayın. Başqaları haqqında əmin olmadığınız rəy bildirməyin. Dondurduğunuz işləri isə saat 18-dən sonra davam etdirə bilərsiniz.



**OĞLAQ** - Şəxsi işlərinizdə müsbət dönüş gözlənilir. Amma bir az diqqətli olun. Çalışın ki, "qatara" gecikməyəsiniz. Nahardan sonra xoşagəlimli hadisələr olmalıdır. Qohumlarınızla əlaqə saxlayın.



**SUTÖKƏN** - Maliyyə problemlərinizin artmasına baxmayaraq iş prinsipində hər şey ürəyinizcə olacaq. Ola bilsin ki, sizi narahat edən bəzi fəaliyyət sahələrində irəliləyiş baş versin.



**BALIQLAR** - Mənfi yüklü Ay bürcünüzdə qərar tutsa da, ovqatınız yaxşı olacaq. Ətrafınızdakı hadisələr sizə sevinc bəxş edəcək. Saat 14-dən sonra şəxsi büdcənizi artıra bilərsiniz.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Dünyanın ən gözəl qadınları bu ölkədə yaşayır



Tanınmış səyahət jurnalı "Traveler" maraqlı sorğu keçirib. Sorğuda məqsəd dünyanın ən gözəl qadınlarının hansı ölkədə yaşadığını müəyyənləşdirmək olub. Sorğuya görə, dünyanın ən gözəl qadınları 12 ölkədə yaşayır. 12-ci yerdə İsrail qərarlaşıb. 11-ci yerdə Kanada, 10-cu yerdə Venesuela, 9-cu yerdə Estoniya, 8-ci yerdə ABŞ, 7-ci yerdə Ukrayna, 6-cı yerdə Belarus, 5-ci yerdə Latviya, 4-cü yerdə Bolqarıstan, 3-cü yerdə Rusiya, 2-ci yerdə Argentina, 1-ci yerdə İsveç yer alıb.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "E-Q" mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100